# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir


№ 145 (7313)

15 avqust 2025-ci il.
Qiymәti 60 qәpik


## YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



4

## Qarabağ və Şərqi Zəngəzur: cənnətin bir parçası



2

**Prezident İlham Əliyev: "Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq"**

# Amerika ilə Rusiya arasında

*Avropa və Ukraynasız görüşün nəticəsi nə olacaq?*



5

### "Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi dəyişikliklərin açarıdır"



4

### İxtisas seçimi: əmək bazarını nəzərə alın



8

### Bir zamanlar "Beşdaş", "Evcik-evcik", bəs indi?..



15

### Ronaldo sevgilisinə 6 milyon avroluq nişan üzüyü aldı...



16

### Ata-ana hansı hallarda valideynlik hüququndan məhrum edilir?



6

# Qarabağ və Şərqi Zəngəzur: cənnətin bir parçası

## Prezident İlham Əliyev: "Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq"

2003-cü ildən etibarən, Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin uğurlu daxili və xarici siyasəti, məqsədyönlü islahatlar proqramı ölkəmizin bütün sahələrində sürətli inkişaf mərhələsinə qədəm qoymasına səbəb olub. Müasir yanaşmalar və milli iqtisadi prioritetlər əsasında mükəmməl islahatlar konsepsiyasının reallaşdırılması nəticəsində Azərbaycan son illərdə yüksək inkişaf templərinə görə dünyanın lider dövlətləri sırasındadır. Ölkəmizin siyasi, iqtisadi, sosial mənzərəsi göstərir ki, Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunun varisliyini təmin edə biləcək alternativsiz siyasi lider olduğunu təsdiqləyib. Ötən illər ərzində Azərbaycan xalqının təhlükəsizlik və sabitlik şəraitində yaşaması, uğurlu inkişafı hər bir Azərbaycan vətəndaşında məmnunluq yaradır. "2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi. Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq, biz öz taleyimizi özümüz həll edirik, ölkə qarşısında duran problemləri özümüz heç kimin köməyi olmadan həll edirik və əsaslı şəkildə həll edirik" - deyən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, verdiyim vədlər arasında təbii ki, ilk növbədə, ölkəmizin ərazi bütövlüyünün bərpası idi.

"2020-ci ildə İkinci Qarabağ müharibəsi başa çatanda bizim Bayrağımız Şuşada və azad edilmiş digər ərazilərdə qaldırılanda biz hamımız yaxşı bilirdik ki, işimiz yarımçıq qalıb. Azərbaycan öz dövlət suverenliyini tam bərpa etməli idi və bunu etdi. Üç il ərzində biz bunu sülh yolu ilə həll etmək istəyirdik. Hesab edirdik ki, Ermənistan rəhbərliyi İkinci Qarabağ müharibəsinin nəticələrini düzgün təhlil edərək özü üçün nəticə çıxaracaq", - deyə dövlət başçımız çıxışlarının birində qeyd edib. 2023-cü ilin sentyabrın 19-da başlamış və cəmi bir gün, ondan da az davam edən antiterror əməliyyatı Azərbaycan Ordusunun tam Zəfəri ilə nəticələnmişdir: "Separatçı rejim çökmüş, bizim qarşımızda diz çökmüş, ağ bayraq qaldırmış, təslim olmuş, torpaqlarımızdan əbədi olaraq çıxarılmış və tarixin zibilxanasına atılmışdır. Bununla Azərbaycanda separatizmin kökü kəsildi və separatizm - bu bəla bizim torpağımızda bir daha baş qaldıra bilməz", - deyə dövlətimizin başçısı bildirib.

### "140 MİN KÖÇKÜN ÖZ DƏDƏ-BABA TORPAQLARINA QAYIDACAQ"

Azərbaycan tərəfi qanunsuz erməni qüvvələrinin mövcudluğuna son qoymaq və bütün ərazilərində tam suverenliyi bərpa etmək məqsədilə, Qarabağ bölgəsində 24 saat ərzində antiterror tədbirləri həyata keçirdi. Azərbaycan Ordusunun Qarabağda başlatdığı iki il əvvəl 19 sentyabr tarixindəki lokal xarakterli antiterror tədbirlərinin qısa müddətdə öz müsbət nəticəsini verməsi, separatçıların təslim olması növbəti qələbəmiz oldu. Azərbaycan Ordusu müasir hərbi texnologiyaları döyüş şəraitində uğurla tətbiq etməklə Ermənistanın Qarabağdakı bütün hərbi infrastrukturunu və hərbi texnikasını sıradan çıxardı. Azərbaycan Ordusu döyüş meydanında böyük şücaət, qəhrəmanlıq göstərərək düşmən üzərində qələbə çaldı.

Hərb meydanında sözünü deyən Azərbaycan bu gün quruculuq meydanında da imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Təbii ki, Böyük Qələbənin nəticəsində yaradılmış yeni reallıq Qarabağın bərpası və inkişafını nəzərdə tutan Böyük Qayıdış strategiyasının aktuallığını təmin edir. Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, gələcək inkişafının təmin olunması, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilir. Önəmli vəzifələrdən biri olan Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi olduğunu bildirən Cənab Prezident görülən işlərin sürətlə aparılmasını tarixdə görünməmiş bir hadisə olduğunu bildi-



rib: "Biz Böyük Qayıdış proqramının birinci mərhələsini 2026-cı ilin sonunda başa çatdıracağıq və o vaxt 140 min köçkün öz dədə-baba torpaqlarına qayıdacaq".

Azərbaycan 44 günlük Vətən müharibəsində neçə illərə bərabər bir yol getdi, döyüş əməliyyatı apardı. Dünyanı təəccübləndirən, hərb tarixində yeni səhifə olan müharibədə qalib oldu. 30 illik bir həsrətə son qoyuldu və tarixi torpaqlarımız işğaldan azad olundu. Xalqımız üçün geniş yollar açıldı. Azərbaycan xalqının həmrəyliyi, xalq-iqtidar birliyi uğurları şərtləndirən amil olduğundan ölkəmizi daha da böyük nailiyyətlər gözləyir.

Azərbaycanın otuzillik erməni işğalından azad olunmuş Şərqi Zəngəzur və Qarabağ bölgələrində əzəli yurd yerlərimiz vandalizmə məruz qalıb, tarixi-mədəni mirasımız yerləyeksan edilib. Prezident İlham Əliyevin tapşırığına əsasən, işğaldan azad edilmiş rayon və şəhərlərdə İşğal və Zəfər muzeyləri kompleksləri yaradılır.

### SAĞLAM MALİYYƏ SİSTEMİNİN GÖSTƏRİCİLƏRİ

Zəfərdən beş ilə yaxın zaman ötməsinə baxmayaraq, işğaldan azad olunan ərazilərimizdə abadlıq və quruculuq işləri uğurla və davamlı şəkildə həyata keçirilir. Keçmiş məcburi köçkünlər öz əzəli torpaqlarına, doğma diyarlarına qayıdırlar. Bu gün işğaldan azad olunan ərazilərimiz abadlıq-quruculuq meydanına çevrilib. Ən əsası isə onu qeyd edək ki, işğaldan azad olunan ərazilərimizdə kompleks tədbirlərin həyata keçirilməsi bu ərazilərin müasir zamanın tələblərinə uyğun qurulmasına və Böyük Qaydışımızla əzəli Qarabağ torpağında insanların rahat, firavan yaşamasına istiqamətlənib. Hazırda regionda genişmiqyaslı infrastruktur layihələri icra olunur. Yeni avtomobil və dəmir yolları, hava limanları, elektrik və su təchizatı sistemləri yaradılır, iqtisadiyyat, təhsil, səhiyyə, ictimai xidmətlər, mədəni irsin bərpası və digər istiqamətlərdə mühüm layihələr həyata keçirilir.

Bu gün Azərbaycanda yeni bir həyat başlayıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlara yenidən nəfəs gəlir və bu məkanların infrastrukturu yenidən qurulur, yeni yollar çəkilir. Bildiyimiz kimi, 30 ilə yaxın işğal altında saxlanılan ərazilərimizdə yaşayış məntəqələrinin əksəriyyəti, orada həyat üçün zəruri olan sosial-iqtisadi infrastruktur obyektləri dağıdılmışdır. Tarixi-mədəniyyət və dini abidələrimizə, ətraf mühitə ciddi ziyan vurulmuşdur. Erməni barbarlığının nəticəsi olaraq fərdi və çoxmənzilli yaşayış evləri dağıdılmışdır. Bu ərazilərdə ermənilər tərəfindən aparılan şumlama əməliyyatı neçə əsrlik tarixi olan ölkənin yeraltı və yerüstü sərvətlərinə qarşı yeridilən siyasi taktikadır. Bütün bunlara baxmayaraq, Azərbaycan dağıdılmış, talan edilmiş məkanları bərpa işinə start verib, habelə dayanıqlı və davamlı iqtisadi fəallığının təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşdırır.

### QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA DİRÇƏLƏN HƏYAT

Həyata keçirilən işlərə diqqət yetirsək görərik ki, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsində yerləşən tam orta məktəbin və uşaq bağçasının binasında aparılan təmir-tikinti işləri artıq başa çatdırılıb. Xocalı şəhərində, Ballıca, Həsənriz, Talış və Suqovuşan kəndlərində tibb məntəqələri istifadəyə verilib. Hazırda Qarabağ Universitetinin İqtisadiyyat fakültəsinin binasının inşası davam etdirilir. Növbəti tədris ilində Qarabağ Universitetində təhsil alacaq tələbələrin yerləşdirilməsi üçün nəzərdə tutulan 7 beşmərtəbəli binada əsaslı təmir işləri tamamlanmaq üzrədir və ərazidə abadlıq işlərinə hazırlıq görülür.

Azərbaycan Respublikası Prezidentinin 7 fevral 2025-ci il tarixli Sərəncamı ilə Qarabağ Universitetinin tabeliyində "Qarabağ Universitetinin Klinikası" publik hüquqi şəxs yaradılıb. Universitetin Tibb Klinikasının tədris korpusunun təmiri üzrə son tamamlanma işləri aparılır. Bundan başqa, ərazidə nəqliyyat infrastrukturunun qurulması ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sifarişi ilə Sərsəng su anbarından Ağdərə rayonunun Umudlu kəndinə gedən avtomobil yolunun yenidənqurulması başa çatdırılıb. Suqovuşan - Sərsəng su anbarı - Qozluköрpü - Kəlbəcər, Suqovuşan-Kəlbəcər (9 km) Ağdərə-Ağdam, Əsgəran-Xocalı-Xankəndi-Şuşa və Tərtər-Ağdərə avtomobil yollarının tikintisi davam etdirilir. Xankəndi şəhərində 13 min 600 metr uzunluğunda olan şəhərdaxili yol sahəsinə müvəqqəti asfalt örtüyü çəkilib. Xankəndidə 60 yaşayış və 20 qeyri-yaşayış binasında təmir və yenidənqurma işləri aparılıb.

Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin artıq açılışı olub. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur.

Birinci mərhələ üzrə layihələndirilən ərazinin sahəsi 170.44 hektardır. Bu mərhələdə kəndə 719 ailənin, ümumilikdə 2951 nəfərin köçürülməsi planlaşdırılır. Birinci mərhələdə kənddə 719 fərdi evin inşası həyata keçirilib ki, onlardan da 263-ü iki, 332-si üç, 121-i dörd, 3-ü isə beşotaqlıdır. Bundan başqa, kənddə zəruri müasir sosial infrastruktur, o cümlədən inzibati və xidmət binaları tikilib. Burada çoxfunksiyalı inzibati binanın, klub-icma mərkəzinin, tibb məntəqəsinin, təcili tibbi yardım bölməsinin, təhsil və səhiyyə işçilərinin müvəqqəti yaşayışı üçün qonaq evinin, məişət xidməti obyektinin, emalatxananın, tam orta məktəbin, körpələr evi-uşaq bağçasının inşası həyata keçirilib. Kəndin ərazisinin təxminən 20 faizi yaşıllıqlardan ibarətdir. Kənddə məskunlaşacaq əhali üçün tələbata uyğun inşa olunan körpələr evi-uşaq bağçası 120 yerlikdir. Bundan başqa, 528 şagird yerlik tam orta məktəb istifadəyə verilib.

### "KEÇMİŞ KÖÇKÜNLƏRİN YAŞADIQLARI YAŞAYIŞ MƏNTƏQƏLƏRİNİN SAYI 18-Ə ÇATIB"

Güclü iqtisadi inkişafa sahib olan Azərbaycan yalnız özünün maliyyə resurslarına arxalanaraq yeni şəhər və kəndlər salır. 2021-ci ildə bu məqsədlə dövlət büdcəsindən 1,3 milyard, 2022-ci ildə isə 2.2 milyard ABŞ dolları məbləğində vəsait ayrılıb. Laçında, Füzulidə və digər ərazilərdə görülən işlər, Füzuli Beynəlxalq Hava Limanın cəmi səkkiz ay ərzində tikilib istifadəyə verilməsi, Zəngilan Beynəlxalq Hava Limanını açılışı və s. işlərin uğurla davam etdiyini göstərir. 2025-ci ildə isə Laçında Beynəlxalq Hava Limanı istifadəyə verilir. Xəstəxanalar, məktəblər, yaşayış binaları inşa edilir. 10-dan çox kəndin Baş planı təsdiqlənib və bir neçə kəndin təməli Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qoyulub. Görülən işlər Baş planlar əsasında həyata keçirilir. "Artıq keçmiş köçkünlərin yaşadıqları yaşayış məntəqələrinin sayı 18-ə çatıb. Xankəndidə Qarabağ Universitetində 1500 tələbə oxuyur, 300 müəllim onlara dərs deyir. Yəni, bütün bunlar bilirsiniz, necə deyim, bizə bir möcüzə kimi gəlir, o cümlədən mənə. Halbuki yəni, sirr deyil ki, bütün bu qərarların verilməsində mənim iştirakım olub. Amma qısa müddət ərzində bu qədər böyük işin görülməsi bu gün bir daha göstərir ki, bizim nə qədər istedadlı xalqımız var. Mənə çatan məlumata görə, o cümlədən buraya səfər edən xarici nümayəndələr deyirlər ki, söhbət təkcə pulda, pul məsələsində deyil. İstəyir nə qədər pulun olsun, əgər insan kapitalı yoxdursa, əgər insanlar ürəklə işləmirlərsə, heç bir işi görmək mümkün deyil. Bir xüsusi əlaməti də diqqətinizə çatdırım, yəqin ki, siz də bunu yaxşı bilirsiniz. Burada işləyənlərin hamısı çox böyük həvəslə işləyir, - yəni, təbii ki, burada şirkətlər, dövlət qurumları işləyir, - burada işləmək insanlara xüsusi zövq verir. Biz bu torpaqlar üçün o qədər darıxmışıq, o qədər bu torpaqların həsrətində olmuşuq ki, indi qayıtmışıq və necə deyərlər, bu torpaqlarımızdan doya bilmirik. Ona görə "Böyük Qayıdış" Proqramı artıq reallaşıb", - deyə Azərbaycan Prezidenti bildirib.

Göründüyü kimi, Azərbaycanın iqtisadi gücünün, dinamik inkişafının nəticəsidir ki, işğaldan azad olunan ərazilərimizdə yeni həyat başlanılıb.

***Zümrüd BAYRAMOVA***

# "Azərbaycan və ABŞ: Strateji tərəfdaşlığın yeni mərhələsi"

## Dünya mediası Vaşiqnton görüşündən yazır

***Dünya mediasında Azərbaycan, Ermənistan və ABŞ liderləri tərəfindən Vaşinqton şəhərində imzalanmış birgə bəyannamənin, habelə xarici işləri nazirləri tərəfindən paraflanmış sülh müqaviləsinin beynəlxalq siyasi əhəmiyyəti ilə bağlı məqalələr dərc olunmaqda davam edir.***

Bolqarıstan mətbuatında yayılan məqalələrdə Azərbaycan və Ermənistan liderlərinin on illiklər davam edən münaqişəyə son qoyulması üzrə yekun sülh sazişinin təsdiq etməsi və bunun regional və qlobal təhlükəsizliyə və inkişafa əhəmiyyətli dərəcədə töhfə verməsi yüksək təqdir olunur.

Əldə olunmuş razılaşmanın Asiya ilə Avropanı birləşdirən beynəlxalq bağlantıların təmin olunması və regional kommunikasiyaların açılması baxımından önəmli əhəmiyyət daşıdığı vurğulanır. Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisindən maneəsiz gediş-gəlişin təmin olunması, eyni zamanda Ermənistanın da Azərbaycan ərazisi vasitəsilə ticarət və nəqliyyat əlaqələrindən faydalanacağı xüsusi olaraq qeyd olunur.

Razılaşmanın dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına hörmət əsasında və mehriban qonşuluq prinsipləri üzərində tərtib olunduğu bildirilir.













Məqalələrdə, həmçinin avqustun 8-də Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət edərək, 1992-ci ildən münaqişənin sülh yolu ilə həllində vasitəçilik vəzifəsi daşıyan, lakin bu missiyanı tamamilə yerinə yetirə bilməmiş ATƏT-in Minsk prosesinin və onun aidiyyəti təsisatlarının fəaliyyətinin dayandırılmasını tələb etdiyi diqqətə çatdırılır. Bildirilir ki, iki ölkə arasında gələcək münasibətlərin və əməkdaşlığın əsas prinsiplərini və istiqamətlərini müəyyən edən əsas çərçivə sənədi olan Sülh Sazişi Azərbaycan və Ermənistanın dövlət sərhədlərini dünya birliyi tərəfindən tanınan beynəlxalq sərhədlər kimi təsdiq edir, hər iki ölkənin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır, separatizmi qəti şəkildə rədd edir.

Estoniyanın "Business-M" biznes və informasiya portalında Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə ABŞ-a işgüzar səfərinin yekunlarına həsr olunmuş "Azərbaycan və ABŞ: Strateji tərəfdaşlığın yeni mərhələsi" sərlövhəli məqalə dərc olunub.

Məşhur onlayn nəşrin materialında Prezident Donald Tramp ilə səfər çərçivəsində keçirilmiş görüşlər, "Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması məqsədilə Strateji İşçi Qrupun yaradılmasına dair Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında imzalanmış Anlaşma Memorandumu" barədə geniş məlumat təqdim olunub.

Nəşr qeyd edir ki, Strateji İşçi Qrupunun yaradılması ikitərəfli praktiki əməkdaşlığın institusional bazasının yaradılması üçün xüsusi əhəmiyyət kəsb edir. Səfər həm də ABŞ Prezidentinin iki ölkə prezidentlərinin görüşü zamanı Azadlığa Dəstək Aktının 907-ci maddəsinin dayandırılması haqqında fərmanın imzalanması ilə əlamətdar olub ki, bu da mühüm simvolik əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası Prezidentinin ABŞ-a səfəri də Azərbaycan ilə Ermənistan arasında münasibətlərin normallaşması prosesi kontekstində mühüm nəticələrlə yadda qalıb. Səfər zamanı Azərbaycan, ABŞ və Ermənistan liderlərinin zirvə görüşü keçirilib, onun yekunları üzrə Azərbaycan və Ermənistan liderləri, eləcə də şahid qismində ABŞ Prezidenti Birgə Bəyannamə imzalayıblar. Bundan əlavə, hər iki ölkənin xarici işlər nazirləri tərəfindən "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin yaradılması haqqında Saziş"in layihəsi paraflanıb, ATƏT-in Minsk Prosesi və onunla əlaqəli strukturların bağlanmasına dair ATƏT-in fəaliyyətdə olan sədrinə birgə müraciət imzalayıblar. Səfər zamanı dövlətimizin başçısı İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR ilə "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq Memorandumu" imzalanıb. Sənədi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov və "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar.

"Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a səfəri iki ölkə arasında strateji tərəfdaşlığı gücləndirən əsas razılaşmalar gətirib. Memorandumların və bəyannamələrin imzalanması enerji, təhlükəsizlik və iqtisadiyyatda yeni perspektivlər açır. İkitərəfli münasibətlərdəki maneələri aradan qaldıran 907-ci maddənin ləğvi mühüm addım oldu.", - deyə Estoniya nəşri qeyd edir.

Rumıniyanın nüfuzlu "Bursa" nəşrində dərc edilmiş analitik məqalədə bildirilir ki, Prezident İlham Əliyev Rusiya tərəfindən Azərbaycanın SOCAR-a məxsus enerji obyektlərinə və qaz nəqliyyat infrastrukturlarına hava hücumlarına baxmayaraq, Azərbaycan-Ukrayna enerji əməkdaşlığının davam edəcəyinə əmin olduğunu bəyan edib. Məqalədə qeyd olunur ki, Prezident İlham Əliyev bu mövqeyini Ukrayna Prezidenti Volodimir Zelenski ilə telefon danışığı zamanı ifadə edib. Hər iki lider Rusiyanın hücumlarını qətiyyətlə pisləyib və bu hücumların ikitərəfli enerji layihələrinə təsir etməyəcəyini vurğulayıb.

Yazıda bildirilib ki, yanvar ayından etibarən Ukrayna Trans-Balkan marşrutu vasitəsilə Azərbaycandan ilk qaz nəqli sınaqlarını həyata keçirib və əməkdaşlığın əhəmiyyətli dərəcədə genişləndirilməsini planlaşdırdığını açıqlayıb. Lakin bu dövrdə Rusiya Ukrayna ərazisində SOCAR-a məxsus neft anbarlarını və qaz kompressor stansiyalarını hədəfə alan bir neçə hava hücumu həyata keçirib.

Məqalədə vurğulanır ki, bu hadisələr təkcə enerji sahəsində deyil, həm də regionun siyasi dinamikasında yeni gərginliklər yaradır. Bununla belə, prezidentlər İlham Əliyev və Volodimir Zelenski arasındakı möhkəm dialoq və qarşılıqlı etimad enerji resurslarının bölgədə sabitlik və inteqrasiya amili olaraq qalmasını təmin edir. Prezident İlham Əliyev Rusiyanın hücumlarına cavab olaraq Ukraynaya humanitar enerji yardımı məqsədilə 2 milyon ABŞ dolları məbləğində elektrik avadanlığı göndərilməsi üçün göstəriş verib. Analitik məqalədən belə nəticə çıxarılır ki, Azərbaycan bu strateji kursdan geri dönməyəcək, enerji əməkdaşlığı siyasi və geosiyasi dəyişikliklərdən asılı olmayaraq davam etdiriləcək.

Bundan başqa, Türkiyənin "Tercüman" qəzetində avqustun 8-də Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqton görüşünün yekunlarına həsr olunmuş analitik material dərc edilib. Nəşr qeyd edir ki, ATƏT Minsk qrupu onilliklər ərzində Ermənistan-Azərbaycan probleminin həllini ləngitmək üçün alət olub, strukturun özü isə Cənubi Qafqazda sülhün bərqərar olmasına deyil, müəyyən dairələrin maraqlarına xidmət edib. Materialda vurğulanır ki, İkinci Qarabağ müharibəsinin başlanğıcı ATƏT-in Minsk qrupunun "sonunun başlanğıcı" oldu. "Azərbaycanın Vətən müharibəsində Qələbəsinin təntənəsi olan üçtərəfli Bəyanat faktiki olaraq ATƏT Minsk qrupunun danışıqlar prosesləri çərçivəsindən kənara çıxarıb, İrəvanın bu aləti dirçəltmək cəhdləri isə uğursuzluğa düçar olub", - deyə məqalədə daha sonra xatırladılır ki, Ukraynadakı müharibə fonunda Fransa və ABŞ ATƏT-in Minsk qrupunda iştirakını "dondurub". Eyni zamanda rəsmi Bakı "Minsk qrupu tarixin bir hissəsi oldu" tezisindən məharətlə istifadə edib.

"Nəticə olaraq, ATƏT Minsk qrupu 2023-cü ildə bir dəfə də olsun iclas keçirməyib, həmsədr ölkələrin bir dənə də olsun bəyanatı açıqlanmayıb. Vaşinqton və Paris Bakı və İrəvanla birbaşa əlaqə yaradıblar. Moskva da oxşar taktikaya əməl etməyə başladı", - deyə qəzet yazaraq, Prezident İlham Əliyev ilə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Ağ Evdə keçirilən görüşün yekunları fonunda, ATƏT-in Minsk qrupunun ləğvinin yalnız prosessual addımlardan asılı olduğunu diqqətə çatdırıb.

# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib





***Avqustun 14-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.***

Görüşdə Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin birgə fəaliyyəti sayəsində iki ölkə arasında əlaqələrin yüksək inkişaf səviyyəsinə çatdığı qeyd olunub. Prezident İlham Əliyevin cari ilin aprel ayında bu ölkəyə rəsmi dövlət səfəri çərçivəsində Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanmasının əlamətdar hadisə olduğu və gələcək əməkdaşlıq üçün geniş imkanlar yaratdığı xüsusi vurğulanıb.

İki ölkənin həm ikitərəfli qaydada, həm də beynəlxalq müstəvidə uğurlu əməkdaşlığının təsdiqi olaraq Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləyən ilk ölkələrdən biri olan Azərbaycanın tranzit imkanlarının Orta Dəhlizin inkişafına töhfə verdiyi, eləcə də Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişləndirilməsinin rəsmi Pekin tərəfindən dəstəkləndiyi diqqətə çatdırılıb.

Görüş zamanı Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin sürətli inkişafından, fəal siyasi dialoq və təcrübə mübadiləsinə önəmli töhfə verən qarşılıqlı səfərlərin intensiv xarakter almasından məmnunluq ifadə olunub, ötən ilin noyabrında YAP nümayəndə heyətinin Çinə səfəri zamanı iki partiya arasında imzalanmış əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib.

Görüşdə cari ildə nəzərdə tutulan tədbirlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# "Zəngəzur dəhlizi böyük geosiyasi və iqtisadi dəyişikliklərin açarıdır"

"Zəngəzur dəhlizi ilə bağlı xeyli müddətdir mübarizə gedir. Bu, çox vacib məsələdir. Orta yol, Orta Dəhliz layihəsinin əsas məntəqəsi və mərhələsidir. Bunun ətrafında uzun müddət müzakirə və mübarizə aparılırdı - kim nəzarət edəcək, kim daha çox bəhrələnəcək? Bəzi ekspertlər Zəngəzur dəhlizinin əhəmiyyətini Panama kanalına bənzədirlər. Yəni, Zəngəzur dəhlizi Panama kanalının quru variantı hesab edilir". Bu sözləri SİA-ya açıqlamasında Azad Vətən Partiyasının sədri Akif Nağı deyib. Onun sözlərinə görə, Panama kanalının necə böyük əhəmiyyətə malik olduğu, onun uğrunda illər, onilliklər, hətta yüzilliklər mübarizənin getdiyi məlumdur. O dəhlizə kimlər nəzarət edəcəkdi? Son illərdə də bu məsələnin ətrafında mübarizə səngiməmişdi. Heç kim nəzarəti əldən vermək istəmir. Hətta orada Çin amili də var idi. Çin sakitcə iqtisadi imkanlardan istifadə edərək Panama kanalını qismən nəzarətə götürmüşdü. ABŞ bu vəziyyətdən xəbər tutaraq, müəyyən addımlar atdı və öz mövqeyini bərpa etdi: "Zəngəzur dəhlizi də dünyanın böyük iqtisadi xəritəsini birləşdirən bir yoldur. Bu layihənin reallaşacağı ilə bağlı uzun müddət tərəddüdlər vardı. Lakin nəticədə Azərbaycan və ABŞ-ın fəallığı, eləcə də Azərbaycanın regionda yaratdığı şərait sayəsində bu nəticə əldə olundu. İki əsas amil rol oynadı: 1. Azərbaycan regionda elə bir vəziyyət yaratdı ki, artıq Azərbaycanın ortaya qoyduğu şərtlərə heç kim müqavimət göstərə bilmədi. Rusiya müqavimət göstərdi, lakin cavabını aldı. İran təzyiqlər göstərdi, lakin nəticə əldə edə bilmədi. Ermənistan isə Azərbaycanın şərtləri ilə razılaşmaq məcburiyyətində qaldı. Yəni, uyğun və münbit şəraiti Azərbaycan yaratdı.




2. Türkiyə ilə birgə fəaliyyət. Türkiyə də Azərbaycanın mövqeyini dəstəklədi. Türkiyədə bəzi anti-Ərdoğan və anti-AKP qüvvələri bu məsələdə yanlış təbliğatlar aparmağa çalışsalar da, bu, reallığı dəyişmir. Bu, həm Türkiyə, həm də Azərbaycanın maraqlarına cavab verir.

Digər bir vacib amil də ABŞ-ın bu prosesdə fəal şəkildə iştirak etməsidir. ABŞ, Rusiyanın neytrallaşdırılmasında əsas fiqur kimi çıxış edir. Eyni zamanda, Azərbaycanın Çinlə strateji tərəfdaşlıq qurması və bu dəhlizlə bağlı Çinlə də müəyyən razılaşmalar əldə etməsi mühüm addımlardan biridir. Zəngəzur dəhlizi ilə bağlı üç əsas variant vardı:

1. Rusiya təkbaşına nəzarət etmək istəyirdi - bu, Azərbaycanın maraqlarına cavab vermirdi.

2. Ermənistan və İran birlikdə nəzarət etməyə çalışırdı - bu da Azərbaycanın maraqlarına uyğun deyildi.

3. ABŞ-ın iştirakı ilə, dəhlizin bir hissəsinin icarəyə verilməsi - bu variant seçildi və hazırda ən real və məqbul variant kimi həyata keçirilməyə başlayıb.



Ən ideal variant əlbəttə ki, dəhlizin tam şəkildə Azərbaycan nəzarətində olmasıdır. Lakin bu mümkün deyilsə, ABŞ-ın iştirakı ilə həyata keçən variant digər ikisindən qat-qat sərfəlidir. Hazırda bu dəhlizə ABŞ-ın özəl şirkətləri nəzarət edir. Bu da həm Azərbaycanın, həm də Türkiyənin maraqlarına cavab verir. Ermənilər də qismən razı görünürlər, çünki icarə mexanizmi onların müəyyən tələblərini də təmin edir. Ancaq ehtimal var ki, gələcəkdə bu nəzarət Azərbaycan və Türkiyəyə keçəcək, ya da hər üç tərəf - Azərbaycan, Türkiyə və ABŞ - birgə şəkildə nəzarət edəcəklər. Bu dəhliz, eyni zamanda, Türk dünyasının birləşdirilməsi və "Turan layihəsi"nin həyata keçirilməsi üçün böyük strateji əhəmiyyət daşıyır. Bu, həm də Azərbaycanın və Türkiyənin bölgədəki geosiyasi çəkisini artırır, İran və Rusiyanın təsir imkanlarını zəifləDir. Yəni, Zəngəzur dəhlizi sadəcə bir nəqliyyat layihəsi deyil, böyük geosiyasi və iqtisadi dəyişikliklərin açarıdır".

***Ziya Hikmətoğlu***

# Amerika ilə Rusiya arasında

## Avropa və Ukraynasız görüşün nəticəsi nə olacaq?

***Ukraynanın Avropadakı müttəfiqləri avqustun 13-də Alyaskada keçiriləcək ABŞ-Rusiya sammiti ərəfəsində Ukrayna böhranı ilə bağlı Qərbin mövqeyini əlaqələndirmək üçün bir sıra danışıqlar aparıb. Avro-Atlantik Diplomatiya Günü Ukraynada müharibə və sülh məsələlərinə iki alternativ yanaşmanı, bir tərəfdən Donald Trampın, digər tərəfdən isə Kiyevə dəstək qrupunu birləşdirmək üçün son şans idi. Rusiya-Amerika sammitini ləğv edə bilməyən Ukraynanın avropalı tərəfdarları üçüncü tərəf kimi uzaqdan danışıqlar prosesinə qoşulmağa çalışdılar. Ola bilsin ki, avropalı həmsöhbətlərini razı salmaq və ya onların təsiri altına düşmək üçün ABŞ prezidenti onlarla müzakirədən sonra deyib ki, sammit uğursuz olarsa, Rusiya "çox ciddi nəticələrlə" üzləşəcək və o, prezident Putinlə ikinci görüş keçirməyəcək.***



Kiyevin avropalı müttəfiqlərinin Alyaskada Vladimir Putinlə görüşündən iki gün əvvəl Donald Trampın mövqeyinə təsir göstərmək cəhdinin təşəbbüskarı Almaniya kansleri Fridrix Merz olub. Almaniyanın hərtərəfliliyi ilə həlledici diplomatik hücum məsələsinə yanaşan kansler Merz Ukrayna prezidenti Vladimir Zelenskini Berlində məsləhətləşmələrə dəvət edib, prezident Tramp isə əksinə, Alyaskada görmək istəməyib. Avropanın





yeni qeyri-rəsmi lideri roluna iddialı olan kansler Merz danışıqları iştirakçıların müxtəlif tərkibləri ilə bir neçə mərhələyə bölüb.

Berlin vaxtı ilə saat 14:00-da Avropa liderlərinin videokonfransı başlayıb, burada tətilini yarımçıq qoyan Fridrix Merzdən başqa, Fransa, Böyük Britaniya, İtaliya, Polşa, Finlandiya liderləri, eləcə də Avropa İttifaqı Şurasının prezidenti Antonio Kosta, Avropa Komissiyasının sədri Ursula fon der Leyen, NATO-nun Baş katibi Runi Zeyent iştirak ediblər.

Ortaq mövqe barədə razılığa gələn məsləhətləşmələrin iştirakçıları prezident Tramp və ABŞ vitse-prezidenti J.D.Venslə videobağlantı vasitəsilə öz inkişaflarını müzakirə ediblər. Növbəti, üçüncü mərhələ Ukraynaya hərbi və maliyyə dəstəyini koordinasiya edən "istəklilər" adlanan koalisiyasının onlayn iclası olub. Köhnə Dünyanın aparıcı dövlətlərinin liderlərinin, eləcə də Aİ və NATO rəhbərliyinin iştirak etdiyi Vaşinqtonun mövqelərinə Avropa diplomatik hücumu, Politico-nun adı açıqlanmayan bir avropalı rəsmi ilə danışarkən xəbərdarlıq etdiyi kimi, əvvəlcə onlara sürətli uğur vəd etmədi. Trampın bazar ertəsi verdiyi "ərazi mübadiləsi" zərurəti ilə bağlı son bəyanatlarının Avropa düşərgəsində əsəbi reaksiyaya və "ABŞ prezidentinin mövqeyi ilə bağlı yeni çaşqınlığa" səbəb olduğunu əsas gətirən mənbə, "Hər kəs narahatlıq və qəzəb arasında bir şey hiss edir" deyib.

Avropalılar Trampı öz tərəflərinə çəkmək üçün son arqumentləri tapmağa hazırlaşarkən, Ağ Evin rəhbəri görüşdən əvvəl hətta gizli istehza qeydlərinin də olduğu, onlar haqqında alçaldıcı tonda danışıb. "Mən tezliklə Avropa liderləri ilə danışacağam. Onlar razılıq əldə etmək istəyən gözəl insanlardır" deyən cənab Tramp Truth Social sosial şəbəkəsində avropalı tərəfdaşlarının arqumentlərini ciddi qəbul etmədiyini açıq şəkildə yazıb. Bununla belə, Avropa liderlərinin prezident Trampla danışıqlarından sonra verdiyi bəyanatlar yenə də onlara Avro-Atlantik düşərgə daxilində birlik görüntüsü yaratmağa və Vaşinqtonla sərt çaxnaşmalardan qaçmağa imkan verib. Eyni zamanda, Ukraynaya dəstək qrupu bir daha dərhal atəşkəs tələbinin əsas vurğulayaraq, Donald Trampın Alyaskada Vladimir Putindən bunu istəyəcəyinə ümid etdiyini bildirib. Ərazi güzəştləri mövzusuna gəlincə, bu, Qərb liderlərinin bəyanatlarında tangensial olaraq qeyd olunub, Volodimir Zelenski isə yenidən Ukrayna konstitusiyasına istinad edərək, belə bir mübadiləyə hazır olduğunu təsdiqləməyib.

Avropa Komissiyasının sədri Ursula fon der Leyen Telegram kanalında videokonfransın Ukraynadakı vəziyyətlə bağlı "ortaq anlaşmanı" gücləndirdiyinə əminliyini ifadə edərək, "Bu gün ABŞ prezidenti Donald Tramp, Avropa liderləri və Vladimir Zelenski ilə mən çox yaxşı söhbət etdik. Biz koordinasiyanı davam etdirmək barədə razılığa gəldik".

Kansler Merz Vladimir Zelenski ilə birgə mətbuat konfransında ətraflı açıqlama verərək, prezident Trampa Alyaskadakı görüşdə uğurlar arzulayıb. "Biz danışıqlar üçün bir neçə məqamı açıq şəkildə qeyd etdik. Biz açıq şəkildə bildirdik ki, növbəti görüşlər baş tutan kimi Ukrayna danışıqlar masası arxasında olmalıdır. Biz istəyirik ki, danışıqlar düzgün qaydada aparılsın. Başlanğıc nöqtəsi atəşkəs olmalıdır. Bundan sonra əsas elementlər çərçivə sazişində razılaşdırılmalıdır. Nəhayət, üçüncüsü, Ukrayna ilə bağlı tərəflər üçün danışıqlara hazırdır. Başlanğıc nöqtəsi təmas xətti deyilən xətt olmalıdır", - Almaniya kansleri vurğulayıb. Eyni zamanda, onun sözlərinə görə, ərazilərin hüquqi tanınması "müzakirə predmeti deyil". "Sərhədlərin güc yolu ilə dəyişdirilməsinin yolverilməzliyi prinsipi qorunmalıdır", - deyə cənab Merz qeyd edib. Mətbuat konfransının digər iştirakçısı prezident Zelenski atəşkəs rejimini prezidentlər Tramp və Putin arasında aparılan danışıqların əsas məqamı adlandırıb. Ərazi məsələlərinə gəlincə, o, onları "çox mürəkkəb" adlandırıb və Ukrayna konstitusiyasının onun ərazi bütövlüyünün pozulmasına imkan verməməsi ilə bağlı əvvəlki tezisini təkrarlayıb. Avropa "istəklilər koalisiyasının" digər iki memarı - Böyük Britaniyanın baş naziri Key Starmer və Fransa prezidenti Emmanuel Makron - kansler Merzdən fərqli olaraq, Alyaskada ərazi məsələsinin müzakirəsini ümumiyyətlə, məqsədəuyğun hesab etmirlər. "Baş nazir Starmer açıq şəkildə bildirib ki, bizim Ukraynaya dəstəyimiz sarsılmazdır. Beynəlxalq sərhədlər güc yolu ilə dəyişdirilməməlidir və Ukrayna istənilən razılaşmanın bir hissəsi kimi ərazi bütövlüyünü qorumaq üçün güclü və etibarlı təhlükəsizlik zəmanətlərinə malik olmalıdır", - Britaniya baş nazirinin ofisinin bəyanatında deyilir.

X sosial şəbəkəsində Yelisey sarayı səhifəsində çıxışı yayımlanan prezident Makron "ABŞ prezidentinin Rusiya prezidenti ilə Alyaskada görüşdə əsas məqsədi atəşkəs istəməkdir" deyib. O, həmçinin Avropanın məlum mövqeyini təkrarlayıb ki, ərazi məsələləri yalnız Alyaskada təmsil olunmayacaq Ukraynanın iştirakı ilə müzakirə edilməlidir. Prezident Makronun sözlərinə görə, Rusiyaya qarşı yeni sanksiyaların gələcək inkişafı Ukrayna münaqişəsi üzrə qarşıdakı danışıqların nəticələrindən asılı olacaq. "Biz yeni sanksiyalar paketini qəbul etmişik. Biz daha birini hazırlayırıq. Və düşünürəm ki, onun qəbulu yaxın günlərdə və həftələrdə danışıqlardan asılı olacaq. Amma heç nəyi istisna etmək olmaz", - Makron izah edib. Öz növbəsində, avropalı müttəfiqləri ilə danışıqları qiymətləndirən prezident Tramp qeyri-müəyyənlik prinsipinə sadiq qalıb, görünür, bu, onun danışıqlar strategiyasının əsası olaraq qalır. "Çox gözəl söhbətimiz oldu... Prezident Zelenski söhbətdə iştirak etdi. Mən söhbəti on bal kimi qiymətləndirərdim, bilirsiniz, çox mehribandır", - deyə cənab Tramp bildirib.

Onun sözlərinə görə, Ağ Evə qayıtdıqdan sonra Vladimir Putinlə ilk görüşü Alyaska sammiti uğursuz olarsa, sonuncu ola bilər. "İkinci görüş olmaya bilər, çünki onun keçirilməsini məqsədəuyğun hesab etmirəmsə, bizə lazım olan cavabları almadığım üçün, sadəcə olaraq, ikinci görüş olmayacaq", - deyə cənab Tramp jurnalistlərə bildirib. Bundan əlavə, o, Rusiya cümə günü atəşkəslə razılaşmasa, "çox ciddi nəticələrlə" hədələyib.

Rusiya-Amerika sammiti ilə bağlı müzakirələri şərh edən Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bəyan edib ki, uğur və sıçrayışlı qərarlar istəyən sağlam qüvvələr də var, "xırıltılı" da. Xanım Zaxarova Sputnik radiosunun efirində deyib: "İkinci qrup, sanki üstünə müqəddəs su damlamış kimi fısıldayanlar, qıvrılanlar, daşların altından sürünənlər, uğur diləmək əvəzinə, vəziyyətin nizamlanmasına səbəb olacaq addım və ya nailiyyətlərdən başqa nəsə arzulayanlardır".

Belə, Tramp-Putin görüşündən əvvəl dünyanın dörd ölkəsindən fərqli münasibətlər, fikirlər eşidilməkdədir. Avqustun 15-də, Alyaskanın kiçik şəhərində Moskva-Vaşinqton danışıqları isə hələlik baş tutmayıb, ehtimallar fərqlidir, nəticə də eyni olmaya bilər

**V.VƏLİYEV**

# “Rusiya Cənubi Qafqazdan çıxarılır”



“Azərbaycan 30 illik işğaldan azad oldu. Bunun üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hakimiyyətə gəldiyi gündən - 2003-cü ildən - qarşısına qoyduğu məqsədə addım-addım, israrla irəlilədi, güclü ordu yaratdı, güclü iqtisadiyyat qurdu və nəticədə Azərbaycan işğal altında olan torpaqlarını yağı düşməndən azad etdi, suverenliyini bərpa etdi”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Elşad Həsənov deyib.

O bildirib ki, qalib ölkə olaraq Azərbaycan məğlub ölkəyə sülh sazişinin şərtlərini irəli sürdü. Nəhayət, həmin sülh sazişi - müqavilə - 8 avqust tarixində paraflandı: ”Bu, doğrudan da çox böyük bir hadisə idi. Son 200 ildə ilk dəfə olaraq Azərbaycan torpağı geri qaytarıldı. Bu mənada Azərbaycan Prezidentinin titanik fəaliyyəti, apardığı siyasət və diplomatik gedişləri bu gün dünyada nümunə kimi göstərilir, təcrübəsi öyrənilir və bu səbəbdən Azərbaycan siyasəti həm Avropa İttifaqında, həm Amerikada, həm də digər ölkələrdə yüksək səviyyədə qəbul edilir. Bizim üçün də böyük fəxrdir ki, dünyanın ən böyük hegemon dövləti olan ABŞ-ın Prezidenti Azərbaycan Prezidentini böyük lider adlandırır, ona hörmətlə yanaşır, ”İlham Əliyev mənim dostumdur” deyir. Hətta ABŞ Prezidenti Donald Trump İlham Əliyevə Ağ Evin rəmzi olan açarı təqdim edib. Bu, çox böyük bir məsələdir. Tramp həmin mərasimdə bildirib ki, bu açar hər adama verilmir - yalnız nadir liderlərə təqdim olunur və o nadir liderlərdən biri də məhz İlham Əliyev olub.

Bəli, biz çox böyük bəlalardan qurtulduq. İndi isə regionda, Cənubi Qafqazda geosiyasi vəziyyət dəyişir. İndiyədək 200 ildən artıq bir müddət ərzində bu regionda Rusiya dominantlıq edirdi, təsiri altındaydı. Ancaq 2024-cü ilin dekabrına qədər Rusiya ilə münasibətlərimiz normal idi. Lakin 2024-cü il dekabrın 25-də Azərbaycan təyyarəsinin Rusiya səmasında vurulmasından sonra Azərbaycan Prezidenti beynəlxalq hüquq normalarına uyğun olaraq Rusiyadan üzr istəməsini, təzminat ödəməsini və cinayəti törədənlərin cəzalandırılmasını tələb etdi. Təəssüf ki, qonşumuz Rusiya bu çağırışlara cavab vermədi, məsələyə barmaqarası yanaşdı və Azərbaycanı saymadı.



Bunun nəticəsində Azərbaycan apardığı müdrik siyasət və strateji addımlarla Rusiyanı Cənubi Qafqazdan çıxarmağa nail oldu. Bəli, qarşıda hələ məsələlər qalır. Yəni Rusiya hələ tam çıxarılmayıb. Amma artıq Azərbaycanda Rusiyanın heç bir dayağı yoxdur. ”Beşinci kolon” adlandırılan ruspərəstlər də başa düşürlər ki, Azərbaycanda artıq səslərini çıxara bilməzlər.

Artıq Rusiyanın Cənubi Qafqazda məğlubiyyəti açıq şəkildə görünür. Çünki Rusiyasız Azərbaycan və Ermənistan arasında sülh sazişi paraflanıb. Bu, ABŞ-da - Donald Trump-ın iştirakı və dəstəyi ilə baş tutub. Zəngəzur dəhlizi isə ”Trump marşrutu” adı ilə fəaliyyət göstərəcək”.

Politoloq qeyd edir ki, bizim üçün fərqi yoxdur - əvvəllər üçtərəfli bəyanata əsasən, bu dəhlizə Rusiya nəzarət etməli idi. İndi isə bunu ABŞ edir. Bizim üçün əsas olan sabitlikdir. Fərq yalnız ondadır ki, Rusiya artıq Cənubi Qafqazdan çıxarılır və çıxarılacaq. Məsələn, Ermənistan Baş naziri Paşinyan da hakimiyyətə gələndən bəri Rusiyaya qarşı addımlar atır. Onlar rus sərhədçilərini Zvartnots hava limanından çıxardılar, Türkiyə və İran sərhədlərində də rus sərhədçiləri əvəz olunub, erməni sərhədçiləri yerləşdirilib. Bütün bunlar göstərir ki, Ermənistanda da tabelikdən çıxmaq üçün müəyyən addımlar atılır. Yəni Rusiya apardığı bədnam siyasətlə Cənubi Qafqazdan çıxarılacaq və bu, Azərbaycan Prezidentinin apardığı güclü və diplomatik siyasətin nəticəsində baş verəcək. Əlbəttə, biz hələ də tam təhlükədən xilas olmamışıq. Rusiya Azərbaycana təhdidlər edir. Onların Dövlət Dumasında bəzi deputatlar Azərbaycana hücum etmək, neftqaz infrastrukturlarını bombalamaq çağırışları edirlər.

Lakin bu gün Azərbaycanın çox güclü müttəfiqləri var: Türkiyə, İsrail, Pakistan və indi də ABŞ - Donald Trump kimi liderin dəstəyi ilə. Ona görə də hesab edirəm ki, Rusiya yaxın zamanlarda Azərbaycana qarşı ciddi bir addım ata bilməyəcək. Əks halda, Rusiya özü daha ağır problemlərlə üzləşə bilər. Nəticə etibarilə, aparılan düzgün siyasət sayəsində Azərbaycan inkişaf etdi, böyüdü, dünya iqtisadiyyatına töhfələr verdi, Avropa İttifaqının enerji təhlükəsizliyinə dəstək göstərdi və bu gün dünyanın lider ölkələrindən biri hesab olunur. Bütün bunlar xalqın və dövlətin milli maraqlarını qoruyan düzgün siyasətin nəticəsidir.

***Günel Fərzəliyeva***

# Ata-ana hansı hallarda valideynlik hüququndan məhrum edilir?

*Vəkil mühüm məqamlara aydınlıq gətirdi*

“Azərbaycan Respublikası Ailə Məcəlləsinin 64.0. maddəsinə əsasən valideynlər (onlardan biri) valideynlik hüquqlarından aşağıdakı hallarda məhrum edilə bilərlər: 64.0.1. öz valideynlik vəzifələrini yerinə yetirmədikdə; 64.0.2. alimenti qəsdən ödəmədikdə; 64.0.3. heç bir üzrlü səbəb olmadan uşağı doğum evindən və yaxud hər hansı müalicə, tərbiyə, əhalinin sosial müdafiəsi müəssisəsindən və digər analoji müəssisələrdən götürməkdən imtina etdikdə; 64.0.4. valideynlik hüquqlarından sui-istifadə etdikdə; 64.0.5. uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə; 64.0.6. xroniki alkoqol və narkomaniya xəstəsidirsə; 64.0.7. uşaqların və ya ərinin (arvadının) sağlamlığına və ya həyatına qarşı qəsdən edilmiş cinayət törətdikdə”. Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullazadə deyib.



O bildirib ki, həmin məcəllənin 65.1. maddəsinə əsasən valideynlik hüquqlarından məhrumetmə məhkəmə qaydasında həll edilir: ”Həmin məcəllənin 65.4. maddəsinə əsasən valideynlik hüquqlarından məhrumetmə işinə baxılarkən məhkəmə valideynin (onlardan birinin) hərəkətlərində cinayət əməli olduğunu aşkar edərsə, bu barədə prokurora məlumat verməyə borcludur. Həmin məcəllənin 66.1. maddəsinə əsasən valideynlik hüquqlarından məhrum edilmiş valideynlər uşağa münasibətdə həmin uşaqla qohumluq faktına əsaslanan bütün hüquqlarını, o cümlədən bu məcəllənin 82-ci maddəsinə əsasən uşaqdan təminat almaq, habelə uşaqlar üçün təyin edilmiş dövlət müavinəti almaq və imtiyazlardan istifadə etmək hüququnu itirirlər.



Həmin məcəllənin 66.6-cı maddəsinə əsasən uşaq, valideynlərin (onlardan birinin) valideynlik hüquqlarından məhrum edilməsi haqqında məhkəmənin qətnaməsindən 6 ay keçəndən sonra övladlığa götürülə bilər”.

”Həmin məcəllənin 72.1. maddəsinə əsasən uşağın sağlamlığı və ya həyatı birbaşa təhlükədə olduqda, müvafiq icra hakimiyyəti orqanı uşağı valideynlərdən (onlardan birindən) və ya onu qəyyumluğa (himayəyə) götürmüş şəxslərdən təcili olaraq almaq hüququna malikdir. Müvafiq icra hakimiyyəti orqanı bunu müvafiq akt əsasında həyata keçirir.

Həmin məcəllənin 114.1. maddəsinə əsasən valideynlər öldükdə, valideynlik hüquqlarından məhrum olunduqda, valideynin hüquqları məhdudlaşdırıldıqda, valideynlər fəaliyyət qabiliyyəti olmayan hesab edildikdə, valideynlər xəstələndikdə, uzun müddət uşaqlarla birlikdə olmadıqda, valideynlər uşaqların tərbiyəsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən yayındıqda, o cümlədən sosial xidmət müəssisələrindən öz uşaqlarını götürməkdən imtina etdikdə, eləcə də valideyn himayəsinin olmadığı digər hallarda uşaqların hüquq və mənafelərinin müdafiəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# ABŞ danışıqlarından sonra Ermənistan

***Paşinyanın Ağ Evdə keçirdiyi görüşdən sonra Ermənistanda siyasi vəziyyət gərginləşib. Parlamentdə təmsil olunan partiyalar hakimiyyətə sərt mesajlar göndərir, hətta qarşıdurmaya qədər gedəcəklərini bəyan edirlər. Əlbəttə, bunlar revanşist deyilən 5-ci kolonun, Rusiyanın bu ölkədəki əlaltılarıdır. Ermənistanın Azərbaycanla sülh müqaviləsi imzalamasına, sülh şəraitində, mehriban qonşuluq ab-havasında yaşamasına mane olan ölkələrin başında kim durur, heç tərəddüd etmədən Rusiyanın adını çəkə bilərik. Moskva onun iştirakı olmadan imzalanan hər hansı müqaviləni tanımayacağını bütün tribunalardan, həm də barbar bağıraraq deyir. Sülh yarada bilməyən "şimal ayısı"nın yadına ədalət anlayışı indi düşüb. Vaşinqtonda imzalanan sənədə ikrahla baxır, bu sənədi tanımayacağına işarə vurur. İran-Ermənistan sərhədindən çəkilməyəcəyini israrla bildirir. Bəs sonra nə olacaq?***



Ermənistan hakimiyyəti və müxalifəti Azərbaycanla sülh sazişinin paraflanmasının əhəmiyyəti barədə mübahisə edir. Baş nazir Nikol Paşinyanın tərəfdarları 8 aprelin erməni diplomatiyasının təntənəsi olduğunu iddia edir, əleyhdarları isə bu günü milli maraqlara növbəti xəyanət hesab edirlər. Bu arada respublikanın sadə sakinləri ABŞ-da aparılan danışıqlardan sonra hələlik heç bir dəyişiklik hiss etməsələr də, yeni regional təhlükəsizlik sisteminin onların hüquq və azadlıqlarına təsir edə biləcəyindən narahatdırlar.

Keçmiş president, Putinin "sadiq köpəyi" Robert Köçəryanın müxalif "Ermənistan" bloku bəyan edib ki, Vaşinqtonda paraflanmış sülh sazişi "Azərbaycanın "Artsax" ermənilərinə qarşı apardığı etnik təmizləmə və soyqırım siyasətini" legitimləşdirmək cəhdidir. Eyni zamanda, İrəvan Bakıya güzəştlərdən heç nə qazanmayacaq. "Paralanmış sazişdə (xüsusən, 8-9-cu maddələr, 15-ci maddələr) "Artsax"ın azad edilməsi uğrunda mübarizədə iştirak etmiş bütün ermənilərə qarşı açıq şəkildə işlədiləcək, Azərbaycanın cinayətlərini ört-basdır edəcək, həmçinin erməni tərəfini bu cinayətləri törədənləri məsuliyyətə cəlb etmək üçün beynəlxalq sənədlərdən istifadə etmək imkanından məhrum edəcək ifadələr var", - Ermənistanın bəyanatında deyilir.



Müxalifət əmindir ki, Cənubi Qafqazda həqiqi sülh yalnız beynəlxalq təminatlar və regionda real qüvvələr balansı ilə bərqərar ola bilər. Bunsuz Bakı ilə bütün razılaşmalar erməni tərəfinə ziyan vuracaq, Köçəryanın müttəfiqləri əmindirlər. Bununla bağlı onlar respublikada hakim rejimin dəyişdirilməsini tələb ediblər. Yəni, müxatifət bununla sülhə qarşı olduğunu sübut etmiş olur. Həm də rusiyapərəstlər "sülhyaratmada" daha çox vasitəçinin olmasını ona görə istəyirlər ki, münaqişənin sonu gəlməsin. Bulanıq suda balıq tutmaq istəyənlər asanlıqla arzularına çatsınlar.

Üçüncü prezident Serj Sarkisyana bağlı olan "Mənim şərəfim var" müxalifət alyansı Paşinyanın komandasının üzvlərini Türkiyə ilə ittifaq bağlamaqda ittiham edib. "Onlar bir vaxtlar Qarabağın qələbələrinin nəsli və onun daşıyıcıları olduqları ilə fəxr edirdilər, bütün günü orada əyləndilər, Ağdamı vətənləri elan etmişdilər, xarici siqnallarla siyasi vəziyyətin dəyişdiyi ana qədər təmtəraqlı tostlar qaldırdılar, indi isə türk təşkilatlanması mərhələsinə qədəm qoyublar", alyansın katibi Tiqran Abrahamyan deyib.

Hakim "Mülki müqavilə"də isə bayram var. Belə ki, parlamentin spikeri Alen Simonyan paraflanmış sazişin erməni gənc nəslinə təkcə dinc həyat deyil, həm də böyük iqtisadi imkanlar verəcəyini açıqlayıb. "Ermənistan və Azərbaycan arasında imzalanmış sülh sazişi ölkəmiz üçün iqtisadiyyatı gücləndirmək, təhsili inkişaf etdirmək və təhlükəsizliyi gücləndirmək üçün böyük imkanlar açır. Sizin nəsliniz davamlı sülhün ən böyük qurucusu və qoruyucusu olacaq. İnanıram ki, biz birlikdə təhlükəsiz, ədalətli və firavan Ermənistan quracağıq, burada məhdudiyyətlər, qeyri-müəyyənlik və qorxu olmadan arzularınızı həyata keçirə bilərsiniz", - Simonyan vurğulayıb.

Eyni zamanda o, sülh sazişinin əleyhdarlarını tənqid edib. Simonyanın sözlərinə görə, "paxıllıq və pul onların gözlərini bulandırıb" və buna görə də onlar müqavilənin mətnini oxuya və onun Ermənistan üçün faydasını başa düşə bilmirlər. "Nikol yenə haqlı idi, onlar isə səhv etdilər" deyə parlamentin spikeri yekunlaşdırıb.

Paşinyanın ailə qəzeti "Haykakan Jamanak" qəzeti erməni əsilli italyan heykəltəraş Vigen Avetisdən sitat gətirir: "Zəngəzuru (Syuniki) doğulan və xilas edən ikinci Njde Paşinyandır. O, vəd etdiyinə nail oldu: müharibə olmayacaq".

Öz növbəsində Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan ABŞ-da aparılan danışıqların nəticələrini hələlik qiymətləndirməkdən çəkinmək qərarına gəlib. "Hakimiyyət, təbii ki, sevinir, bunu ən böyük uğurlarından biri hesab edir. Parlament müxalifəti isə təbii ki, sazişdə nəinki müsbət bir şey görmür, əksinə, onun icrasının dağıdıcı nəticələrini proqnozlaşdırır. Mənə ünvanladığınız suala gəlincə, mən hələlik cavab verməkdən çəkinirəm, çünki əminəm ki, razılaşdıqdan sonra cavab verilə bilər". Eyni zamanda Rusiyanın "demək olar ki, tam susması" və İran rəsmilərinin "müxtəlif" qiymətləndirmələri onu çaş-baş salıb.

Bu arada, ölkənin aparıcı banklarından birində çalışan İrəvan sakini Gevorq etiraf edib ki, onu və tanışlarını ən çox sülh müqaviləsinin məzmunu yox, Ermənistanın hansı istiqamətdə getdiyi narahat edir. "Bəziləri hər şeyin əldən getdiyini qışqırır, bəziləri sevinir... Bir şey aydındır: dünya yenidən bölünür. Mənim üçün əsas odur ki, Ermənistan avtokratik düşərgəyə düşməsin", - mənbə bildirib.

Onun fikrincə, Cənubi Qafqazda təhlükəsizliyə ABŞ yox, Türkiyə və Azərbaycan nəzarət edə bilər. Nəzərə alsaq ki, Paşinyan hakimiyyətdən əl çəkmək fikrində deyil, onun Bakı ilə sülh müqaviləsindən müxalifətlə mübarizə aləti kimi istifadə etməsi və nəticədə qonşu ölkələrdəki rejimi formalaşdırması mümkündür. Eyni zamanda, Gevorq sülh müqaviləsinin Paşinyana Konstitusiyanı dəyişməyə kömək edəcəyini düşünür, lakin ümumilikdə o, paraflamadan bu vəzifənin öhdəsindən gələrdi.

Politoloq Arşaluys Mqdesyan bildirib ki, Qərblə əlaqələrin gücləndirilməsi tərəfdarları sülh sazişinin paraflanmasını ümumilikdə müsbət qarşılayırlar və onların düşərgəsi genişlənir. Sıraları getdikcə azalan Rusiya tərəfdarları buna qarşı çıxırlar. "Ümumiyyətlə, əksəriyyət anlayır ki, Ermənistan hakimiyyəti sazişdən faydalanmağa yox, Qarabağ uğrunda müharibədə məğlubiyyətdən dəyən ziyanı minimuma endirməyə çalışır. Bundan əlavə, görünür, Rusiyanın bizi qoruyacağı və bütün problemləri həll edəcəyi ilə bağlı mif ABŞ-la bağlı oxşar miflə əvəz olunur. Eyni zamanda, bunun Paşinyana nə dərəcədə kömək edəcəyi məlum deyil, o, parlament seçkilərində ilk növbədə referendumda qalib gəlmək istəyəcək. və sonra Əsas Qanunun dəyişdirilməsi üzərində işə başlayın", - Mqdesyan hesab edib.

**V.VƏLİYEV**

# İxtisas seçimi: əmək bazarını nəzərə alın

## Diplom xətrinə perspektivsiz ixtisas oxumaq, yoxsa lazımlı peşəyə yiyələnmək?

***Universitet təhsili insanın peşəkar və şəxsi inkişafında mühüm rol oynayır, ixtisas seçimi isə gələcək həyatını formalaşdıran vacib şərtlərdən biridir. Bu kontekstdə universitet və ixtisas seçərkən nəzərə alınmalı olan əsas amillər böyük əhəmiyyət kəsb edir. Harada oxumalı, hansı universiteti seçməli, hansı ixtisas daha perspektivlidir kimi suallar düzgün analiz edilməli, dəqiq qərar verilməlidir.***

Son 100 ildə baş verən texnoloji inkişaf, bütövlükdə bütün tarixi hadisələrdən daha sürətli baş verib. Texnologiya inanılmaz sürətlə irəliləyir, eyni zamanda bir çox peşənin irəliləməsinin qarşısını alır. Üstəlik, bu üstələməyə təkcə texnologiya deyil, eyni zamanda elmi, sosial, mədəni, ekoloji və iqtisadi inkişaflar da çox təsir edir. Ona görə peşə seçərkən, ixtisas axtarışında olarkən bu xırdalıqları unutmamaq, dövr ilə ayaqlaşan ixtisas seçmək lazımdır.

Mütəxəssislər deyir ki, ixtisas seçimi üçün diqqət ediləcək məqamlar çoxdur. Ümumi qəbul planı, universitetlərdə ixtisaslar üzrə qəbul planı, dövlət sifarişli yerlərin sayı, bal aralıqları, keçən ilin keçid balları ixtisas seçimi zamanı vacib olan əsas məlumatlardır. Bundan əlavə, son 3 ilin analizini, keçid balını keçən abituriyentlərin sayını, abituriyentin maraq dairəsini, ixtisasların gələcək iş imkanlarını, universitetlərin müqayisəsini bilmədən ixtisas seçimi peşmanlıqla nəticələnə bilər. Ekspertlər əvvəlki illərin ballarına istinadən ixtisas seçimi etməyi doğru hesab etmir.







Abituriyentlər ixtisas seçimi edərkən mütləq günümüzün tələbatlı ixtisaslarını seçməklə yanaşı, əmək bazarında iş imkanları geniş olan ixtisas olmasına diqqət etməlidir. Elə məşhur ixtisaslar da var ki, ölkəmizin əmək bazarında məhdud imkanlara sahibdir. Təhsil eksperti Ramin Nurəliyev deyir ki, hazırda yüzlərlə ali təhsil müəssisəsini bitirənlər var ki, düzgün ixtisas seçimi etmədikləri üçün işsizdir və yaxud da, arzuladığı yerlərdə işləmirlər: "Düzgün karyera qurmaq üçün düzgün ixtisasa yiyələnmək lazımdır. Əgər bir abituriyent müəllim kimi özünü görmürsə, onun bu ixtisası seçməsi düzgün deyil. Gələcəkdə müəllim işləməyən birinin müəllimlik ixtisasını 4 il oxuması israfçılıqdır. Bununla yanaşı bəzi iş imkanları məhdud olan ixtisaslar var ki, abituriyentlər ya məcbur seçim edir, ya da bilmədən seçir. Bitirdikdən sonra da günahı başqa yerlərdə axtarır."

Ekspert bildirir ki, abituriyentlər ixtisas seçimi edərkən real ölkəmizdəki tələbatları, gələcək karyerasını nəzərə alaraq düzgün seçim etməlidir. Öz prespektivinizə və potensialınıza uyğun olmayan, o sahədə işləmək istəmədiyiniz ixtisasları seçməyin. Cihaz mühəndisliyini, robototexnika mühəndisliyini seçim etmək üçün Yaponiyada magistr oxumaq yaxşı olardı. Bu imkanlardan məhrumsunuzsa, o ixtisasları seçməyin. Xüsusilə də, bəzi qızların beynəlxalq münasibətlər, regionşünaslıq ixtisasını bitirdikdən sonra işsiz qalmaması üçün dərin analiz etməsi lazımdır. 4 il sonra ailə qura bilər və ailəsi xaricə getməsinə razı olmaya bilər. Bu ixtisası bitirənlərin iş imkanlarının yarısı xarici ölkələrdə olur".

Bilmək lazımdır ki, seçdiyiniz ixtisas ömrünüzün sonuna kimi insan taleyini həll edəcək. Hüquqşünas olmaq potensialınız yoxdursa 4 il universitetdə oxuyaraq sonra diplomlu işsiz kimi evdə oturmalı olacaqsınız. Çünki ölkəmizdə artıq öz ixtisasını sevməyən gənclər ordusu formalaşır. İxtisas seçimi zamanı valideynlərin fikri də ciddiyə alınmalı, düşüncələri diqqətlə dinlənməlidir. Valideynin övladın yerinə ixtisas seçməsi doğru deyil, amma valideynin məsləhəti ilə ixtisas seçmi olması daha uğurlu ola bilər. Çünki valideyn artıq ölkənin əmək bazarını, hansı sahədə işsizliyin çox olduğunu bilir, həyatı yeni başlayan gəncdən daha çox təcrübəsi var.

***Lalə Mehralı***

---

MÜNASİBƏT

# "Aparıcı dövlətlər İranın hərəkətlərindən narahatdır"

"Bugünkü İranın vəziyyəti çox çətindir. İran iqtisadiyyatı dünya ölkələri ilə müqayisədə çox aşağı səviyyədədir. İnsanlar yaşayış üçün və ailələrini dolandırmaq üçün pul tapa bilmir, üstəlik son zamanlar su çatışmazlığı kimi problemlər də ortaya çıxıb. Bu gün İran insanları içməli su problemi ilə üzləşir, həyat səviyyəsi aşağıdır və işsizlik getdikcə artır". Bu sözləri SİA-ya açıqlamasında politoloq Əlimusa İbrahimov deyib.

Onun sözlərinə görə, hakimiyyət isə bu problemlərin həlli üçün ciddi tədbirlər görmür və ya görə bilmir. Təbii ki, bütün bu problemlərin səbəbini hakimiyyət daxilində deyil, onlara qarşı tətbiq olunan sanksiyalarda görürlər: "ABŞ və digər qərb ölkələrinin İranla bağlı apardığı siyasəti, eləcə də İsrailin onlara qarşı həyata keçirdiyi hərbi tədbirləri buna misal göstərirlər. Əslində, İrana qarşı tətbiq olunan sanksiyaların ölkədə vəziyyətin pisləşməsində ciddi rolu vardır. Yəni, bu gün İran normal ölkə kimi heç bir ölkə ilə ticarət apara bilmir, əlaqələr qura bilmir və heç bir ölkə ilə münasibətlərini inkişaf etdirə bilmir.



Eyni zamanda, İran hökuməti və hakimiyyətdəki ruhani rejim vəziyyətin belə olmasını əsasən ABŞ və digər dövlətlərin siyasətinə bağlayır. Lakin məsələ burasındadır ki, ABŞ və dünyanın digər ölkələri İrana qarşı sanksiyalar tətbiq edirsə, bunun əsas səbəbkarı İran rejiminin özü deyilmi? Əgər İran rejimi nüvə proqramı üzrə tətbiqatlarda çəkinsə və ABŞ ilə danışıqlarda qəbul edilməyən şərtləri zorlamasa, təbii ki, onun üzərinə sanksiyalar tətbiq olunmazdı.

Bugünkü vəziyyətdə İran hökuməti ABŞ ilə danışıqlar prosesindədir. Əvvəlki danışıqlar nəticə vermədiyinə görə, ABŞ və İsrail onun nüvə obyektlərini və bazalarını raket zərbələri ilə vurublar. Bu isə İranda insanların vəziyyətinin pisləşməsinə səbəb olub. ABŞ və İsrail bununla kifayətlənmir; İran danışıqlar masasında onların tələblərini qəbul etməzsə, ona qarşı yeni hücum planları da hazırlanmış kimi görünür. Bu baxımdan, İranda hakimiyyətdəki fars və ruhani rejim təhlükəni qabaqcadan görür, lakin buna baxmayaraq, istədikləri kimi hərəkət etməyə çalışırlar.

İstədikləri kimi hərəkət etmək dedikdə, təbii ki, nüvə proqramı sahəsində tədqiqatları davam etdirmək və hərbi sahəni inkişaf etdirmək nəzərdə tutulur. Bütün bunlar ABŞ, İsrail və Avropa ölkələrinin xoşuna gəlməyən məsələlərdir və İranı bu sahələrdə çəkinməyə vadar edirlər. Amma İran rejimi hesab edir ki, nüvə proqramı, uranın zənginləşdirilməsi onun haqqıdır və bu istiqamətdə fəaliyyətini davam etdirəcək.

Digər dövlətlər isə, aparıcı ölkələr, uranın zənginləşdirilməsindən məqsədin nüvə silahı olduğunu düşünür və məhz buna görə də İranın nüvə tədqiqatlarına qarşı çıxırlar. ABŞ açıq şəkildə bəyan edir ki, İran uranın zənginləşdirilməsindən imtina etməsə, ona qarşı hücumlar davam etdiriləcək. Təbii ki, İran hökuməti vaxtında ABŞ ilə masada oturub danışıqlar aparsa, müəyyən nəticələr əldə etmək imkanı qazana bilər".

***Günel Fərzəliyeva***

BAXIŞ BUCAĞI

# Qazaxıstanın Ermənistan marağı

## Nikol Paşinyanın Astanaya səfəri gözlənilir

Astana sülh bəyannaməsi imzalandıqdan sonra Ermənistanın baş nazirinin səfərinə hazırlaşır. Prezident Qasım-Jomart Tokayev Ermənistan və Azərbaycan arasındakı tarixi razılaşmanı həm regional əməkdaşlığı, həm də Ermənistanla ikitərəfli əlaqələri aktivləşdirmək üçün fürsət kimi qiymətləndirir. Qazaxıstan rəhbərinin sözlərinə görə, ölkə gələcək danışıqlar üçün platforma olmağa və intensiv iqtisadi əməkdaşlığı təşviq etməyə hazırdır ki, bu da Ermənistanın baş naziri Nikol Paşinyanın qarşıdakı səfərini regional sabitlik və iqtisadi artım üçün əlamətdar hadisəyə çevirir.Qazaxıstan prezidenti Kasım-Jomart Tokayev Ermənistanın baş naziri Nikol Paşinyanla telefon danışığı aparıb. Bu barədə Akordanın (Qazaxıstan prezidentinin administrasiyası) mətbuat xidməti məlumat yayıb. "Qazaxıstan prezidenti Vaşinqtonda Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olması haqqında Bəyannamənin imzalanması münasibətilə Ermənistan hökumətinin başçısını hərarətlə təbrik edib", - məlumatda deyilir.Bu sənəd tarixi əhəmiyyət kəsb edir və onun imzalanması "digər şeylərlə yanaşı, Nikol Paşinyanın güclü siyasi iradəyə və öz dövlətinin milli maraqlarına strateji baxışa malik siyasətçi kimi görkəmli keyfiyyətləri sayəsində mümkün olub. Bəyannamə Cənubi Qafqazda genişmiqyaslı beynəlxalq əməkdaşlığa və Qazaxıstanla Ermənistan arasında daha intensiv iqtisadi və investisiya əməkdaşlığına yol açır", - Akorda hesab edir.Nikol Paşinyan isə öz növbəsində "Qazaxıstanın Ermənistan və Azərbaycanı barışdırmaq üzrə fəaliyyətini müsbət qiymətləndirib. O, qarşılıqlı əməkdaşlıq haqqında yeni sazişlərin imzalanması üçün bu il Qazaxıstana səfər etməyə hazır olduğunu təsdiqləyib".Cənubi Qafqaz politoloqlar klubunun rəhbəri İlqar Vəlizadə hesab edir ki, Qazaxıstan öz dialoq platformasını təklif etməklə, münaqişədən sonrakı dövrdə stabilləşdirici rol oynaya bilər. "Qazaxıstanın diplomatik vasitəçilik təcrübəsi var, bu təcrübə artıq sınaqdan keçirilib, məsələn, Suriya üzrə Astana formatında", - deyə Vəlizadə bildirib.





Erməni politoloq Armen Xanbabyan isə qeyd edib ki, Vaşinqtonda gələcək Ermənistan-Azərbaycan sülh müqaviləsinin mətninin paraflanmasından sonra beynəlxalq biznesin Ermənistana marağı artmağa başlayır. "Bu, başa düşüləndir. Uzun illər Azərbaycan və Türkiyə tərəfindən blokadada olan ölkə 30 ildən artıqdır ki, bütün ciddi beynəlxalq iqtisadi layihələrdən, regional və qlobal logistika zəncirlərindən faktiki olaraq kənarda qalıb. Nikol Paşinyan daha çox yaxşı niyyət kimi qəbul edilib, lakin ölkə üçün real imkan deyil". Onun sözlərinə görə, Vaşinqton sazişinin bağlanması ilə vəziyyət dəyişib. Tokayevin bəyannamənin Cənubi Qafqazda genişmiqyaslı beynəlxalq əməkdaşlıq üçün imkanlar açması və Qazaxıstanın Ermənistanla qarşılıqlı fəaliyyətinin genişlənməsinə töhfə verəcəyi barədə sözləri də faktı təsdiq edir. "Həqiqətən də, Prezident Trampın dəstəklədiyi və Azərbaycanı onun eksklavı olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək marşrut işə başlayanda Qazaxıstan və Ermənistan qarşılıqlı faydalı iqtisadi əlaqələri əhəmiyyətli dərəcədə genişləndirə bilər, çünki əvvəllər keçilməz olan logistik manevrlər aradan qalxacaq. İndiyə qədər istənilən yük Ermənistandan Qazaxıstana hava yolu və ya əksinə, dəmir yolu və ya dəmir yolu ilə yalnız Ermənistandan Gürcüstana və ya əksinə uzun marşrutla gedə bilərdi. Bütün bu illər istisna edildi və tam hüquqlu sülh bağlandıqdan və "Tramp marşrutu" yarandıqdan sonra hər iki istiqamətdə qatarlar Azərbaycan ərazisindən keçə biləcək ki, bu da yüklərin çatdırılma müddətini əhəmiyyətli dərəcədə azaldacaq".Maraqlıdır ki, İrəvanda Sülh Bəyannaməsinin imzalanması ərəfəsində Ermənistanın ərazi idarəetmə və infrastruktur naziri David Xudatyanla Qazaxıstanın səfiri Bolot İmanbayev arasında danışıqlar aparılıb. Həmsöhbətlər nəqliyyat və enerji sektorları ilə bağlı məsələləri müzakirə ediblər.

Həmçinin iki ölkə arasında birbaşa aviareyslərin açılmasının zəruriliyi qeyd edilib. Bununla belə, ölkələr arasında ticarət keçən ildən, Ermənistan prezidenti Vaaqn Xaçaturyanın oktyabrda səfər etdiyi, Qazaxıstan-Ermənistan Biznes Forumunun keçirildiyi vaxtdan daha da sürətlənməyə başlayıb. Tədbirdə iki ölkənin işgüzar dairələrinin 150-dən çox nümayəndəsi, dövlət qurumlarının, milli şirkətlərin, sənaye və regional biznes assosiasiyalarının rəhbərləri iştirak ediblər. Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyanın sözlərinə görə, forum əməkdaşlığın yeni sahələrinin inkişafı, qarşılıqlı faydalı işgüzar əlaqələrin qurulması üçün yaxşı imkan yaradıb, həmçinin iki ölkənin ticarət-iqtisadi əməkdaşlığın dərinləşməsində maraqlı olduğunu təsdiqləyib. O, iki ölkə arasında qarşılıqlı ticarət dövriyyəsinin 2024-cü ilin oktyabrınadək 2,4 dəfə artaraq 2023-cü ilin sonuna 53,1 milyon ABŞ dolları təşkil etdiyini vurğulayıb. Qazaxıstan Respublikasının ticarət və inteqrasiya naziri Arman Şakəliyev forumu tarixi adlandıraraq, yeni imkanların - təkcə bir-birini deyil, həm də üçüncü ölkələrin ixrac marşrutlarının bir-birini tamamlaması ilə bağlı olduğunu qeyd edib. Son məlumatlara görə, Qazaxıstandan Ermənistana ixrac 33,5 milyon dollara çatıb, yastı prokat məmulatları, emal olunmamış alüminium və kağız pulpa əsas məhsullardır. Qazaxıstanın ixrac etdiyi məhsulların siyahısına plastik məmulatlar, müxtəlif içkilər, qara metal məmulatları və qənnadı məmulatları da daxildir.Öz növbəsində Qazaxıstan Ermənistandan 19,6 milyon dollar dəyərində mal idxal edir.

İdxalın liderləri etil spirti, soyuducu və dondurucu kameralar, həmçinin dərman vasitələridir. Ümumiyyətlə, Ermənistan idxalı içkilər, kosmetika, elektrik avadanlıqları və boyalar da daxil olmaqla geniş çeşiddə məhsulları əhatə edir.Ticarət əməliyyatları ilə yanaşı, investisiya əməkdaşlığında da artım var. Son üç ildə Qazaxıstan iqtisadiyyatına birbaşa Ermənistan investisiyaları 11 milyon dolları ötüb. Ekspertlər Avrasiya inteqrasiyası çərçivəsində tərəfdaşlığın gələcək inkişafı üçün əhəmiyyətli potensialı qeyd edirlər. Xüsusilə, İranla azad ticarət zonasının yaradılması, şəhərsalma, təhsil və elm kimi sahələrdə təcrübə mübadiləsi, o cümlədən metallurgiya, kənd təsərrüfatı, əczaçılıq, informasiya texnologiyaları sektoru, nəqliyyat, energetika və turizm sahələrində birgə layihələrin hazırlanması əməkdaşlıq üçün perspektivli istiqamətlərdir. Armen Xanbabyan əmindir ki, Astana ilə İrəvan arasında qarşılıqlı əlaqə Türkiyə Ermənistanla sərhədlərini açanda xüsusilə güclənəcək. Şübhəsiz ki, bu məsələlərin bütün spektri Paşinyanın bu ilin sonuna qədər baş tutacaq Astanaya səfəri zamanı müzakirə olunacaq. "Lakin hazırda bu cür planların çox tez həyata keçiriləcəyini gözləməyə dəyməz. Çətin ki, sülh müqaviləsinin paraflanmış mətni bu ilin sonuna qədər yekun sənəd formasını alsın", - ekspert vurğulayıb.

**V.VƏLİYEV**

***P.S. Məqalədə Qazaxıstan mediasına istinadlar var.***

# “Azərbaycanda multikulturalizm geniş yayılıb”

“Multikulturalizm (çoxmədəniyyətlilik) bir cəmiyyətdə müxtəlif mədəniyyətlərin, dillərin, dinlərin və etnik qrupların yanaşı və dinc şəkildə mövcudluğunu qəbul edən və təşviq edən sosial və siyasi ideologiyadır”. Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. O bildirib ki, bu anlayış mədəni müxtəlifliyi dəyər kimi qəbul edir, azlıqların hüquqlarını qorumağı və onların öz kimliklərini saxlamaqlarını dəstəkləyir, assimilyasiya (fərqlərin aradan qaldırılması) əvəzinə inteqrasiyanı (uyğunlaşmanı) təşviq edir: ”Multikulturalizm əsasən Qərb ölkələrində, xüsusilə Kanada, Avstraliya və bəzi Avropa ölkələrində dövlət siyasəti kimi inkişaf edib.Bu ideologiyanın bizim cəmiyyətimizə həm müsbət, həm də mənfi tərəfləri var. Bir tərəfdən, cəmiyyətdə dözümlülük, qarşılıqlı hörmət və mədəni zənginlik yaradır. Digər tərəfdən isə bəzi hallarda bu siyasət milli-mənəvi və dini dəyərlərlə ciddi şəkildə ziddiyyətə girir.

Azərbaycan yerləşdiyi coğrafi mövqeyə görə Qafqazın kəsişməsində, Şərqlə Qərbin arasında əsrlər boyu müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin bir arada yaşadığı bir məkana çevrilib. Tarix boyu burada Türk,












fars, ərəb və rus mədəniyyətlərinin təsiri olub, müsəlmanlar (şiə və sünni), xristianlar (alban pravoslavları, rus pravoslavları, ermənilər) və yəhudilər dinc yanaşı yaşayıblar. Bakı, Gəncə, Şəki, Quba kimi şəhərlərdə çoxmillətli icmalar formalaşıb. Son 10 ildə Azərbaycanda da multikulturalizmin inkişaf etdiyini müşahidə edirik. Dövlət bu sahədə bir sıra ciddi addımlar atıb: 2016-cı ilin ”Multikulturalizm ili” elan olunması, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması, ali məktəblərdə bu mövzuda dərslərin keçirilməsi və s.

Lakin bu ideologiya bizim milli-mənəvi və dini dəyərlərimizə zidd olmadan tətbiq edilməlidir. Qeyd etmək lazımdır ki, bəzi Qərb ölkələrində multikulturalizm çərçivəsində LGBT, radikal feminizm və digər sosial ideyalar da təşviq edilir. Biz inanclı, müsəlman bir cəmiyyət olaraq bu kimi məsələləri öz əxlaqi və dini dəyərlərimizə uyğun qiymətləndirməliyik.Cəmiyyətimiz müsəlman cəmiyyəti olduğuna görə biz İslamda da multikulturalizmə yerinə nəzər salmalıyıq”.

Ekspert qeyd edir ki, islamın çoxmədəniyyətliliyə münasibəti prinsipial olaraq müsbətdir, lakin müəyyən şərtlərlə: ”Biz bilirik ki, Qurani Kərimdə etnik və mədəni müxtəliflik tanınır. Qurani Kərimdə Allah Təala insanların müxtəlif millətlərə və tayfalara bölünməsini öz hikmətinə uyğun olaraq izah edir: ”Ey insanlar! Biz sizi bir kişi və bir qadından yaratdıq. Sizi tayfalara və qəbilələrə böldük ki, bir-birinizi tanıyəsiniz ” (Suratul Hucurat, 13)

Bu ayə göstərir ki, İslam etnik və mədəni fərqliliyi təbii və qəbul edilən bir hal kimi görür. Peyğəmbər dövründə tolerantlıq nümunələrinə də kifayət qədər rast gəlinir. Peyğəmbər Məhəmməd dövründə də mədəni və dini müxtəlifliyə hörmət göstərilmişdir. Mədinə Sazişi müsəlmanlarla yanaşı yəhudilərin və digər icmaların hüquqlarını tanımış, birgəyaşayış prinsipləri üzərində qurulmuşdu. İslam fərqli mədəniyyətlərin yaşamasını qəbul edir, əgər bu mədəniyyətlər insan haqlarına zidd deyilsə, ictimai əxlaq və ədalətə qarşı deyilsə, zorla yayılmağa çalışmırsa.

İslam dini ədalət, bərabərlik və insan ləyaqəti kimi universal dəyərləri əsas tutur. Bu baxımdan, multikulturalizmin bu dəyərlərlə uyğun olan hissələri İslamla ziddiyyət təşkil etmir. İslam multikulturalizmi şərtli şəkildə qəbul edir, fərqli mədəniyyətlərə və etnik qruplara hörmət etməyi, birgə yaşamağı qəbul edir. Lakin bu müxtəliflik İslamın əsas prinsipləri - əxlaq, ədalət və insaniyyətlə toqquşmamalıdır. Azərbaycan da bu yanaşmanı mənimsəyərək, multikulturalizmi milli və dini dəyərlərimizə uyğun formada tətbiq etməlidir. Belə olan halda, həm cəmiyyət daxilində həmrəylik qorunacaq, həm də beynəlxalq aləmdə açıq bir cəmiyyət olaraq nüfuzumuz artacaq”.

***Günel Fərzəliyeva***

# “Missiyanın bitməsi Qafqazda birbaşa sülh dialoqu üçün yeni imkanlar açır”

“Avropa İttifaqının Ermənistandakı müşahidə missiyasının iflasa uğraması və artıq ehtiyac qalmaması, Cənubi Qafqazda sülh prosesinə real töhfə verə biləcək yeni siyasi və diplomatik şəraitin formalaşmasına zəmin yaradır. Azərbaycan uzun müddətdir bəyan edirdi ki, bu missiyanın fəaliyyəti elan olunan neytrallıq prinsiplərinə tam uyğun gəlmir, əksinə, ”binokl diplomatiyası” adlandırılan yanaşma ilə daha çox Azərbaycanın mövqelərinə qarşı yönəlmiş addımlar atılır”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Polad Mehdiyev deyib.

Onun sözlərinə görə, missiya əsas mandatından kənara çıxaraq, bölgədə obyektiv vasitəçi rolunu oynamaq əvəzinə, birtərəfli müşahidə və hesabatlarla prosesə konstruktiv deyil, daha çox siyasi rəng qatmağa çalışıb. Bunun nəticəsində məsələ beynəlxalq gündəmdə qalaraq, missiyanın real effektivliyi həm region ölkələri, həm də beynəlxalq ictimaiyyət tərəfindən sorğulanmağa başladı: ”Missiyanın fəaliyyətinə son qoyulması, Azərbaycan və Ermənistan arasında birbaşa, vasitəçisiz etimad quruculuğu üçün daha əlverişli mühit formalaşdıra bilər. Xarici təsir və müdaxilə altında baş verən təxribatların azalması, sərhəd xəttində gərginliyin yumşalması və tərəflər arasında birbaşa dialoqun intensivləşməsi ehtimalı bu yeni mərhələdə xeyli artır. Bu yanaşma həm də regionun təhlükəsizlik arxitekturasında Qafqaz dövlətlərinin öz daxili resurslarına, əməkdaşlıq mexanizmlərinə və qarşılıqlı razılaşma potensialına daha çox güvənməsinə şərait yarada bilər. Cənab Prezident İlham Əliyevin prinsipial mövqeyi, strateji baxışları və ardıcıl diplomatik səyləri nəticəsində regionda süni şəkildə yaradılan gərginlik amillərinin tədricən aradan qalxması müşahidə olunur. Bu, yalnız Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üçün deyil, həm də bütövlükdə Cənubi Qafqazda sabitlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik üçün yeni imkanların açılması baxımından mühüm bir dönüş nöqtəsidir.






Beləliklə, missiyanın bitməsi sülh prosesinə mane olan xarici təsir elementlərinin zəifləməsi, regional ölkələrin isə öz aralarındakı problemləri birbaşa həll etmək üçün daha çox təşəbbüs göstərməsi deməkdir. Bu isə, növbəti mərhələdə, bölgədə dayanıqlı sülh və əməkdaşlıq modelinin qurulması üçün tarixi bir fürsət kimi dəyərləndirilə bilər”.

***Ziya Hikmətoğlu***

# Kanaklar Fransa zülmünə qarşı

Yeni Kaledoniya məsələsi Cənubi Sakit okean regionunun ən mürəkkəb və uzunmüddətli siyasi problemlərindən biri olaraq qalır. Fransanın dənizaşırı siyasəti, kanak xalqının müstəqillik arzusu və beynəlxalq hüququn dekolonizasiya prinsipləri arasındakı gərginlik uzun illərdir davam edir. 2025-ci il iyulun 12-də Paris yaxınlığındakı Bujival şəhərində imzalanan Bujival sazişi bu gərginliyi yeni mərhələyə daşıyıb. FLNKS və digər azadlıq təşkilatları sazişi "məcburi" adlandıraraq xalqın siyasi iradəsinə hörmətsizlik kimi qiymətləndirirlər. Mari-Pyer Qoyeş öz çıxışında fəal qüvvələri dinc şəkildə müqavimət göstərməyə çağırıb. Kristian Teyn isə bildirib ki, Bujival sazişi kanak xalqının hüquqlarını tam təmin etmir və müstəqilliyin təmin olunmasına xidmət etmir. Beynəlxalq Dekolonizasiya Cəbhəsi də sazişin hüquqi və beynəlxalq prinsiplər baxımından yetərsiz olduğunu vurğulayaraq BMT Baş Assambleyasının 1514 (XV) saylı Qətnaməsinə və beynəlxalq hüququn əsas prinsiplərinə zidd olduğunu bildirib. Bu sənədin hüquqi mahiyyəti həm Fransanın Konstitusiyasında, həm də beynəlxalq hüquqda açıq şəkildə təsbit edilib.

Kanak xalqının müstəqillik uğrunda mübarizəsi XIX əsrin ortalarından başlayıb. Fransanın Yeni Kaledoniyanı öz müstəmləkəsi elan etməsi və sonrakı onilliklər ərzində iqtisadi, sosial və mədəni məhdudiyyətlər tətbiq etməsi kanak toplumunun milli hüquq və kimlik uğrunda mübarizəsini intensivləşdirib. XX əsrin ortalarında başlayan siyasi









təşəbbüslər xüsusilə 1980-ci illərdə FLNKS-in təşkilatlanması ilə nəticələndi. FLNKS bu müddət ərzində həm diplomatik, həm siyasi, həm də bəzən hərbi tədbirlərlə Fransanın idarəetmə siyasətinə qarşı çıxaraq, kanak xalqının hüquqlarını müdafiə etməyə çalışıb. 1988-ci ildə imzalanan Matignon və 1998-ci ildə bağlanan Noumea sazişi kanakların muxtariyyət hüquqlarını müəyyən qədər tanısa da tam müstəqillik arzusu təmin olunmayıb. Bu baxımdan Bujival sazişi həm tarixi, həm də siyasi kontekstdə yeni mübahisələrə səbəb olub.




Bujival sazişi Fransanın rəsmi mövqeyinə görə, Yeni Kaledoniyaya "xüsusi status" verərək regionun idarəetməsində yeni siyasi model yaratmağı nəzərdə tutur. Sazişə əsasən, Yeni Kaledoniya Fransanın tərkibində qalır, lakin kanaklar ikili vətəndaşlıq hüququna malik olacaqlar, həm Fransa, həm də yeni təsis ediləcək "Kaledoniya" vətəndaşlığı. Sənəd, eyni zamanda, müdafiə, təhlükəsizlik və digər sahələrdə suveren səlahiyyətlərin tədricən ötürülməsini nəzərdə tutur. Lakin sazişin qüvvəyə minməsi yalnız 2026-cı ildə keçiriləcək referendumun müsbət nəticəsinə bağlıdır. Rəsmi Paris sazişi bütün tərəflərin, o cümlədən FLNKS nümayəndələrinin aylarla davam edən işinin nəticəsi kimi təqdim edir. Lakin FLNKS-in mövqeyi fərqlidir. Hərəkatın rəhbərliyi sazişin nə danışıqların ruhunu, nə də kanak xalqının prinsipial mövqelərini əks etdirdiyini vurğulayır.





2024-cü ilin may ayında Fransanın güc strukturlarının azadlıq tələb edən kanaklara qarşı zorakılıqla müşayiət olunan hərəkətləri nəticəsində Yeni Kaledoniyada 14 dinc sakin həlak olub. Bu hadisə bölgədəki gərginliyi daha da artırıb və kanak cəmiyyəti arasında sosial-iqtisadi və siyasi etirazların böyüməsinə səbəb olub. FLNKS-in çağırışı, həmçinin Bujival sazişi ilə razılaşmayan Kanak və digər siyasi qüvvələri birləşdirərək dinc, lakin prinsipial müqavimət strategiyasını formalaşdırmağa yönəlib.

Fransanın mövqeyi isə fərqlidir. Dövlət naziri Manuel Vals avqustun 18-də Yeni Kaledoniyaya səfər edərək Bujival sazişini qorumaq və regionda siyasi stabilliyi təmin etmək niyyətində olduğunu açıqlayıb. Rəsmi Paris sazişi mübahisəsiz bir siyasi model kimi təqdim edir, lakin onun qəbul olunması üçün kanak xalqının razılığı və referendumun nəticələri həlledici olacaq. Bu, həm də Fransanın dənizaşırı ərazilərdə siyasi nüfuzunu qorumaq strategiyasının bir hissəsi kimi qiymətləndirilir.

Bujival sazişi və Yeni Kaledoniyada baş verənlər yalnız regional məsələ deyil, həm də beynəlxalq hüquq və dekolonizasiya prinsipləri baxımından əhəmiyyətlidir. Kanak xalqının öz müqəddəratını təyin etmək hüququnun təmin olunması Fransanın dənizaşırı siyasəti və beynəlxalq cəmiyyətin rolunun düzgün təhlili bu məsələdə önəmlidir. Sazişin icrası zamanı yaranan gərginliklər, xalqın hüquqlarının qorunması və rəsmi dövlət siyasəti arasındakı tarazlığın necə təmin olunacağı sualını gündəmə gətirir. Eyni zamanda, hadisələr Fransanın digər dənizaşırı ərazilərində də müstəqillik və muxtariyyət uğrunda mübarizələrin gələcək gedişatına təsir göstərə bilər.

Kanak xalqının prinsipial mövqeyi və FLNKS-in dinc müqavimət çağırışı, həmçinin beynəlxalq cəmiyyətin bu prosesdə oynayacağı rol regionun gələcəyinə yön verəcək. Sazişin icrası və ya rədd olunması Yeni Kaledoniyada sosial-iqtisadi stabilliyin təmin olunması və dinc həll yollarının tapılması baxımından həlledici olacaq. Bu proses, həmçinin Fransanın dənizaşırı ərazilərdəki idarəetmə modelinin gələcək perspektivlərinə işıq salır və müstəqillik hərəkatlarının beynəlxalq səviyyədə dəstəklənməsi məsələsini yenidən aktuallaşdırır.

***Nigar Orucova***

# Məktəbəqədər təhsil harada olmalı?

## Uşaqlar məktəbə, məktəbəqədər təhsil qruplarında, yoxsa bağçalarda hazırlaşmalıdır?

***Müəyyən yaşa çatdıqdan sonra balacalar üçün hər gün yeni əyləncə, yeni dostlar tapmaq istəyi yaranır. Bu, insanın təbiətindən irəli gəlir. Doğrudur, indi dövrün tələblərinə ayaq uydurmaq, ehtiyaclarımızı qarşılaya bilmək üçün daha çox işləməyə məcbur qalan valideynlər övladına yetərli zaman ayırmaqda da çətinlik çəkir. Həmçinin, bağçalarda tərbiyə və təlim peşəkar olduğu üçün uşaqları ora göndərmək daha yaxşı seçimdir.***

### Valideynlər hər bağçaya etibar etməməlidir?

Məktəbəqədər təlim-tərbiyə uşaqların gələcəyi üçün ən məqsədəuyğun başlanğıcdır. Pedaqoqlar bildirir ki, övladlarımızın bu dövrdə necə təhsil alması, hansı təlimləri görməsi, hansı tərbiyədən keçməsi olduqca lazımlıdır. Ona görə də məktəbdən əvvəl təhsil alacağı bağçanı sevməsi, müəllimləri qəbul etməsi mühümdür.

Təhsil, təlim və tərbiyə doğum ilə başlayıb həyat boyu davam edən bir prosesdir.





Övladlarımızın məktəbəqədər təhsilinə vaxtından əvvəl başlamaq da doğru deyil. Bağçaların əsas təyinatı uşağın ətraf aləmlə tanış etmək, ibtidai təhsilə dəstək üçün ilkin məlumat bazası yaratmaq, rəngləri, fiqurları tanıtmaq, normal ünsiyyət və etiket qaydalarını öyrətmək, fiziki və zehni sağlamlığını qorumaqdır. Məhz bu üzdən UNICEF də məktəbəqədər təhsil müəssisələrini həyata ən yaxşı başlanğıc olaraq xarakterizə edir.

### Bağça az, bağçalı çox

Azərbaycanda uşaq bağçaları, əsasən, 2 yaşından uşaq qəbuluna başlayırlar. Amma daha kiçik yaşda övladını bağçaya əmanət edən valideynlər də var. Onların sırasında çalışan, işi çox olan, səhhətində problem olan valideynlər də var. Bütün hallarda bağçalar uşaq tərbiyəsində əhəmiyyətli rol oynadığı üçün valideynlərin əksərən seçimi ora olur.

Azərbaycanda olan 1 844 məktəbəqədər təhsil müəssisəsinin 1 696 ədədi dövlət, 148 ədədi özəldir. 2022-ci ildə də özəl müəssisələrin sayında artım davam edib. Bir ildə özəl bağçaların sayı 11 ədəd artıb. Özəl məktəbəqədər təhsil müəssisələrinin daha çox hissəsi körpələr evidir. Körpələr evlərinin sayı 80, uşaq bağçalarının sayı isə 68-dir. Özəl məktəbəqədər təhsil müəssisələrinin 146-sı şəhər yerlərində, 2-i kənd yerlərində yaradılıb. Özəl müəssisələrdə uşaq sayı dövlət müəssisələri ilə müqayisədə xeyli azdır. Orta hesabla bir dövlət məktəbəqədər təhsil müəssisəsinə 66 uşaq düşdüyü halda, özəldə say 39-dur. Ümumilikdə ölkəmizdə bağçaya gedən uşaqların sayı 99 minə yaxındır. Uşaqlar 6 yaşınadək bağçalarda tam ödənişsiz formada tərbiyə olunurlar.

Azərbaycanda bağçalar səhərlər saat 7-də açılır. İşi tezdən başlayan valideynlər üçün bu imkan əlverişlidir. Saat 18-ə qədər tərbiyəçilərin və pedaqoqların nəzarətində olan uşaq gün ərzində normal qidalanma ilə təmin edilir. Amma bəzən allergik xəstəliyi olan, xüsusi qida rejimi olan uşaqlar üçün valideyn evdən bağçaya yemək aparır və uşağının bu yeməklə qidalanmasını istəyir. Nahardan sonra uşaqlar ən az bir saat yatır. Yuxudan sonra və oyandıqdan sonra da gündəlik proqrama uyğun tədris edilirlər.

### Bağçanı necə seçməli?

Bağça seçərkən diqqət edilməsi vacib olan məsələlərin ən birincisi pedaqoq məsələsidir. Tədris müəssisəsinin maddi imkanı nə qədər yaxşı olursa olsun, tədris proqramı mükəmməl də olsa uşaqlarla bütün gün birlikdə olan, proqramı tətbiq edən müəllimdir. Bağça müəllimlərinin həm də uşağa ana şəfqəti ilə yanaşması onların uşaqlar tərəfindən daha tez qəbul edilməsi deməkdir.

İndi bağçalarda yer çatışmazlığına görə 15 nəfərlik qrupda 20-25 nəfər uşaq tərbiyə edilir. Bu da təbii olaraq müəllim üçün daha çox yük və əziyyət deməkdir. Belə olduqda zaman darlığından pedaqoq uşaqlara yetəri qədər diqqət ayıra bilmir. Pedaqoqlar məsləhət görür ki, baxçalarda 2-3 yaşlı körpələrin qrupunda hər 5 uşağa bir müəllim nəzarət etməlidir. Yəni 15 nəfərlik qrupun 3 pedaqoqu olmalıdır. 3-6 yaşlı uşaqlara nəzarət edən müəllimin öhdəsinə isə 12 uşaq vermək olar, amma köməkçi müəllimin olması şərti ilə.

Valideynlər övladını bağçaya qoymazdan öncə mütləq tədris müəssisəsi ilə yaxından tanış olmalı, şərtlərini öyrənməlidirlər. Bağça gigiyenik qaydalara cavab verməli, təhlükəsiz yerdə yerləşməli, otaqların və həyətin quruluşu uşağa zərər verməməli, oyuncaqlar keyfiyyətli olmalı, otaqda yıxılacaq stol, şkaf olmamalı, kəsici, deşici və iti əşyalar olmamalıdır. Normal idman zalı, oyun meydançası olmalıdır. Magistral yolda yerləşməməlidir. Yanğın təhlükəsizliyi və zəlzələyə davamı olmalıdır.



### Online qəbul bizə nə qazandırdı?

Artıq bir neçə ildir ki, məktəbəqədər təhsil müəssisələrinə qəbul online qaydada aparılır. Uşaqların qəbulunun elektron qaydada aparılması bq.edu.az ?elektron sənəd qəbulu sistemi vasitəsilə aparılır. Uşaqların təhsil müəssisəsinə növbəyə yazılma prosesi 1 avqust 2023-cü il tarixindən başlayır. Təhsil müəssisəsinə yeni qəbul olunmuş uşaqlar qrupların komplektləşdirilməsi prosesi başa çatdıqdan sonra cari ilin sentyabrın 1-dən etibarən tədrisə başlaya bilərlər. Boş yerlərə qəbul isə il ərzində aparılır.

Təhsil müəssisəsinə qəbul növbəlilik prinsipi əsasında aparılır, lakin ilk növbədə, şəhid ailələrinin uşaqları, Qarabağ müharibəsi və Vətən Müharibəsi iştirakçılarının və müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, tək və işləyən valideynlərin uşaqları, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları, hərbi xidmətdə olan valideynlərin uşaqları, təhsilalan anaların uşaqları, çoxuşaqlı ailələrdən olan uşaqlar, habelə qəyyumluqda olan uşaqlar qəbul edilirlər.

Dövlət bağçalarına qəbul prosesi tamamilə ödənişsiz həyata keçirilir, qəbul və aylıq ödəniş məbləği tələb edilmir. Online qəbulun ən böyük faydası da məhz bu oldu. Birbaşa bağçaya müraciətlər zamanı müəyyən miqdarda (rayondan və yerləşmədən asılı olaraq 200-500 AZN) ödəniş müqabilində uşaqlar bağça ilə təmin olunurdular. Lakin online sistemlə qəbulda belə hallar yoxdur. Problem sadəcə prioritetlər üçün daha çox yer ayrılması, növbələrin uzun çəkməsidir. Bu da qeyd etdiyimiz kimi, bağçalardakı yer sayının uşaq sayına adekvat olmaması ilə bağlıdır.

### 5 yaşlıların məktəbəqədər təhsili, yoxsa bağçanın məktəbəqədər qrupu?

Məktəbəqədər tədris ocaqlarında müxtəlif təhsil proqramları var. Bunlar uşaqların yaşına və əqli inkişafına görə təyin edilir. 5 yaşlıların məktəblərdə yaradılmış məktəbəqədər qruplara cəlb edilməsini doğru hesab etməyən pedaqoqlar bunun uşaqları normadan artıq yüklənməsi kimi qiymətləndirirlər. Məktəbəqədər proqram hər uşağa görə fərdilik xüsusiyyətinə də malik olmalıdır. Zehni və əqli cəhətdən inkişaf etmiş bir uşaqla nisbətən sakit və gec qavrayan uşağın dərs proqramı eyni olmamalıdır. Bunu bilən bağça pedaqoqu belə uşaqla fərdi məşğul olur.






Ümumiyyətlə, insanların təlim və tərbiyəsinin əsası körpəlikdə qoyulur. Xüsusilə də bağçaların həyatımızdakı rolu danılmazdır. Buna görə də hər bir uşağın böyümə ərəfəsində yolunun bağça ilə kəsişməsi onun şansı kimi qiymətləndirilir. Bütün hallarda, kiçik ikən yolumuza işıq tutan əsl müəllimimizin olması hamımızın şansıdır.

***Lalə Mehralı***

# Şəhidlikdə yaşlanmaq qüruru

Qarabağ müharibəsinə ölkəmizin hər yerindən oğullar yollandı. Onlarla naxçıvanlı vətənpərvər hərbçi gənc də Vətən torpaqlarını işğaldan azad edənlərdəndir. Naxçıvan da Qarabağ uğrunda onlarla övladını şəhid verdi. 44 gün davam edən II Qarabağ Müharibəsi zamanı iki ay Naxçıvan tamamilə blokada şəraitində yaşamaq məcburiyyətində qaldı. İki ay bu torpağın Azərbaycanla, paytaxt Bakı ilə heç bir əlaqəsi olmadı. 44 gündə isə naxçıvanlıların tək ümidi olan təyyarələr yalnız Naxçıvana şəhid gətirəndə göründü göy üzündə. Naxçıvan şəhid övladlarına qollarını açanda, onları bağrına basanda göründü təyyarələr. Bu təyyarələr əsrlərə qəhrəmanlıq tarixini yazan Naxçıvan şəhərinə, igidlər oylağı Şərura, vətənpərvərlik mücəssəməsi Ordubada, Babək qeyrətli Babəkə, qəhrəmanlar yurdu Kəngərliyə, Əlincə qeyrətli Culfaya, yenilməzlik abidəsi Sədərəyə, hünəri uca dağlarının şiş zirvələrindən alan Şahbuza gətirirdi şəhidlərimizi. Vətən müharibəsinə mərd oğul kimi gedib, qəhrəman kimi qayıdan balalarımızı. Bu qədim diyarın özünün də, insanlarının da qürur duyduğu, fəxr etdiyi övladları...

Onlardan biri-Azərbaycan Ordusunun əsgəri, 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Füzuli, Xocavənd, Şuşa və Laçının azadlığı uğrunda gedən döyüşlərdə mərdliklə döyüşən, oktyabrın 27-də Laçın döyüşləri zamanı şəhid olan Lətif Əliyev haqqında söhbət açmaq istəyirəm. Bu gün doğum gününü əzizlərinin qeyd etdiyi, gözəl xatirələrlə andığı şəhid Lətif Əliyev.

Dörd il öncə Lətif Əliyevin cənazəsinin Naxçıvana, oradan isə Şərura gətirildiyi günü yaxşı xatırlayıram. 44 gündən biri-noyabrın 2-i idi. Yenə də şəhidimiz gəlirdi təyyarədə. Endi birazdan Naxçıvana... Qarşıladı bu diyar öz əzizlərini, yola saldı onları şəhərlərə, qəsəbə və kəndlərə. Bu yollardan biri də Şərura gedirdi. Həmin gün 3 şəhidi vardı Şərurun. Bu ulu yurd qollarını açıb şəhidini gözləyirdi. Qəribə bir mənzərə canlanırdı gözlər önündə: yaşıllıqlar məkanı Şərurda payızın bir günün içində saçları necə də ağarmışdı. Bəlkə saçlarını yolub yollara tökən ağacların görüntüsü idi bu? Çılpaqlığın bəyazlığı... Şəhidini-əzizini qarşılayırdı yollar da, ağaclar da, yarpaqlar da, ətrafdakı hər şey... Hüzn içində, yox, həm də qürur içində idi Şərur.

Lətifini, Əlisini, Muradını qarşılayırdı. Bu yurdun igid övladlarını, hər biri bir ailənin göz nuru, ürək döyüntüsü olan övladlarını. Yox, tək ailələrinin deyil, onlar bütün Naxçıvanın, Azərbaycanın canı, ürəyi, qürurudur. Birazdan torpağa tapşırıldı Vətən övladları, Şərur rayonunun şəhidlər xiyabanında. Üç şəhid-üç bayraqdır, üç yüksəlişdir, üç torpaqdır, kənddir, el-obadır...

Babasının adını daşıyan Lətifin əmiləri




İlqar, İntiqam, bibiləri Qiymət, Sədaqət, Səidə bu gün tək qardaşlarının balasını deyil, sanki bu gün yenidən öz atalarını da itirmişdilər. Torpağa iki qəhrəmanı, iki şəhidi gömmüşdülər. Onların hər ikisinin adı Lətif idi... Xanlıqların Lətifləri... Biri torpağın zəhmət insanı, biri torpağın şəhid övladı... Biri illərlə torpağın altını üstünə çevirib zəhmət əlləri ilə ailəsini dolandıran Lətif, digəri isə babasından torpağa məhəbbəti əxz edən nəvə Lətif, şəhid Lətif. Baba Lətif zəhmətkeş, qabarlı əlləri ilə dünyadan köçmüşdü, Xanlıqlarda bir zəhmət abidəsi ucaltmışdı özü üçün. Nəvəsini Dədəm Qorqudun torpaqla bağlı tövsiyələri ilə böyütmüşdü, torpağı əkməklə və qorumaqala bağlı tövsiyələri ilə...

Şəhid Lətif haqqında danışılanlar ürəyimi tar-mar etdi, həm də qürurlandırdı. Bu övladın 25 illik həyatı zəhmət üzərində qurulubmuş. Evlərinin dayağı, atasının sağ əli, anasının aldığı nəfəsi imiş... Özündən başqa üç qardaşından mehribanlığı, qayğıkeşliyi ilə çox fərqlənən oğul imiş... Yenicə hərbi işə düzələndən sonra ilk əmək haqqı ilə anasına paltaryuyan maşın alıb, "Ana, neçə illərdir bu böyük ailənin pal-paltarını yumaqdan əllərinin dərisi gedib, qızın da olmayıb ki, sənə kömək etsin. Ta bəsdir, qoy bundan sonra bu maşın yusun ", - deyib. Lətif illərdən bəri atasının hələ də tikib başa çatdıra bilmədiyi evi tamamlayacağını söyləyirmiş. Hələ nə qədər də işlər görmüşdü. Hamısını bibisi Lətifə lay-lay deyə-deyə göstərdi mənə. Evlənənə qədər hamısını bitirmək arzusunda imiş...

***

Biz yanılırıq, Lətif o evi tikib, tamamlayıb. Lətif həyat yolu, Qarabağda şücaətli döyüşləri ilə atasının o kasıb komasının üzərində elə bir malikanə tikib ucaldıb ki, Xanlıqlarda heç kimin elə ev-eşiyi yoxdur. Bu malikənənin ən yuxarı mərtəbəsini özünə məkan seçib Lətif. Bu mərtəbənin adı Vətəndir. Seyr edir oradan Şərurunu... Oradan Qarabağ da görünür... Oradan Lətifi sevənlərin hər biri görünür. Oradan Vətən görünür. Hər kəs Azərbaycan bayraqlarını Lətif üçün dalğalandırır. "Şəhidim, səninlə qürur duyuram", - deyir. Lətif Şərurludur, Xanlıqlarlıdır- Naxçıvanlıdır, Naxçıvan şəhididir, lakin ümumilikdə Lətif bütöv Azərbaycanlıdır. Şəhid olduğu həmin gündən etibarən Lətif Azərbaycan bayrağıdır... Ağlama, Şərur, ağlama Xanlıqlar... Ağlama ata-ana, bibi, əmi, xala. Azərbaycan bayrağına bax, övladın oradan sənə baxır...

*Əzizinəm igid Lətif,*
*Baba Lətif, nəvə Lətif.*
*Qarabağ dastanında*
*Hər söz-söhbəti lətif.*

Lətif Əliyev Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən ölümündən sonra "Vətən uğrunda", 18 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən isə "İgidliyə görə" medalları ilə təltif edilmişdir.

Azərbaycanın Şuşa rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən Lətif Əliyev ölümündən sonra "Şuşanın azad olunmasına görə", Azərbaycanın Xocavənd rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 24 iyun 2021-ci il tarixli Sərəncamlarına əsasən "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir.

Ömürlər yarımçıq qalır, arzular, istəklər, gələcək Vətən torpaqlarına gömülür, lakin bunun özü elə bir xoşbəxtlik deyilmi? Vətən yolunda kim canını, varını əsirgəyər ki?.. Bu oğullar tarixdir... Bu oğullar namusdur, ana-bacılarımızın ismətidirlər... Atasız uşaqların harayıdırlar. Minlərlə soydaşımızın qisasını alanlardırlar. Ən əsası isə gələcəyə aparacağımız, nəsillərə təhvil verəcəyimiz torpaqlarımızın alın açıqlığı, qürur yeridirlər.

44 gündə Naxçıvan dəfələrlə şəhidini qarşıladı, basdı bağrına, qucaqladı, lay-lay dedi... Biz bir toylarda görmüşük o qədər maşınları, o qədər siqnalları, bir də övladlarımızı son mənzilə yola salanda gördük. Bu qədər gülü-çiçəyi toylarımızda görmüşdük, bir də şəhidlər keçən yollarda gördük. Bu qədər insanı da toylarımızda görmüşdük, bir də şəhid cənazələrinin arxasında gördük. Biz bəy xonçalarını yenə də toylarda görmüşdük, məzar üstündə də gördük. Biz anaları oğul toyunda qol qaldırıb oynayanda görmüşdük, "Ay camaat, gəlin, oğlumun toyudur", - deyib cənazə qarşısında oynayanda da gördük. Bəlkə bu da yeni bir toyumuzdüyünümüzdür. Qoy olsun, yeni toyumuzdüyünümüz olsun bunlar. Lakin bir qarış torpağımız da ermənidə qalmasın. Torpaq namusdur, qoy namusumuz tapdalanmasın. Torpaq ululuqdur, qoy ululuqdan enməyək. Torpaq əvvəlimiz və axırımızdır, qoy axırımız əvvəlimizdən utanmasın. Torpaq mənəm, sənsən, bizik, hamımızıq, qoy ölək, son nəfərimizədək, lakin biz varıqsa, Vətən torpaqları da tam olsun...

Bu gün Lətifin doğum günündür, 30 yaşı tamam olur. Bu gün həmişə olduğu kimi, onun əziz xatirəsi anılır, məzarı ziyarət olunur. Analar, qadınlar ağlayar, bu, bəllidir. Lakin bu gün yenə də Lətifin atasının, əmilərinin, qardaşlarının gözündən axan yaş, tez-tez silib gizlətdikləri yaş həm "kişilər ağlamaz", həm də sevinc göz yaşları anlamına gəlir. Çünki bu göz yaşlarında Suqovuşanı görürük, Xudafərinlə həmdərd olan Arazı görürük... Bu yaşlarda Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının, Şuşanın, Kəlbəcərin, Laçının sevincini görürük. Onların əllərindəki bayraq bu gün həm də Qarabağ torpaqlarında dalğalanır. Ətrafı rənglərinə boyayır. Yaşıl rəng erməni tapdağından bozlaşmış yurdları yaşıl çəmənə çevirir, qırmızı Günəş olub, dağların arxasından boylanıb 30 il doğmadığı yerlərə gülümsəyir, mavi Qarabağın başı üzərindəki səmanı aydınladır... Bir anda gözlərim önündə Şərurun Şəhidlər Xiyabanı Murovun zirvəsinə qalxır. Oradan şəhidlərim bizi haraylayır, "Ağlamayın, bizimlə qürur duyun, Vətən torpaqlarını yağıdan almışıq", - deyirlər...

Ruhun şad olsun, Lətif! Şəhidlikdə yaşlanan Lətif! Rurunuz şad olsun, şəhidlər! Siz bizim qürurumuz, başımızın tacısınız. Bizi yenidən Qarabağlı edənlərsiniz. Qarabağın qara bəxtini ağ edənlərsiniz. Nə qədər ki, Azərbaycan var, sizin adınız Vətənlə, torpaqla, bu xalqın namusu, qeyrəti, iffəti ilə qoşa çəkiləcək.

**Mətanət Məmmədova**

# "Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması region üçün faydalı olacaq"

"Prezident İlham Əliyevin ABŞ-a səfəri böyük diplomatik qələbə hesab oluna bilər". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov deyib.Politoloqun sözlərinə görə, Donald Trampın prezidentliyindən öncə ABŞ-da hakimiyyətdə olan demokratlar dövründə ölkəmizə qarşı çoxsaylı təzyiqlər edilirdi: "Azərbaycana qarşı təhdid və diktat dilində danışırdılar və Azərbaycan öz torpaqlarını azad edib, ərazi bütövlüyünü və müstəqilliyini təmin etsə də, ABŞ kimi superdövlət ölkəmizə qarşı çox qərəzli mövqe sərgiləyirdi. Çünki hakimiyyətdə olan şəxslər - xüsusilə də Bayden-Blinken cütlüyü - ermənipərəst siyasət yürüdürdülər. ABŞ-ın keçmiş rəhbərliyinin ermənilərə olan münasibəti və sevgisi ABŞ-Azərbaycan münasibətlərini də kölgə altında qoyurdu.Əlbəttə, Azərbaycanla ABŞ arasında strateji münasibətlərin qurulması çox əhəmiyyətli idi. Donald Tramp isə tamamilə fərqli yanaşma sərgilədi. Onun hakimiyyətə gəldikdən sonra xüsusilə də USAID, "Amerikanın Səsi", "Azadlıq" Radiosu kimi qurumlara qarşı sərt münasibəti Azərbaycanda müsbət qarşılandı.Eləcə də cənab Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Tramp arasında olan yaxın münasibətlər böyük ölçüdə məsələlərin həllinə gətirib çıxardı. Vaşinqtonda imzalanan, həm Azərbaycan-ABŞ arasında strateji münasibətləri müəyyən edən sənəd, eləcə də Ermənistan Baş naziri Nikol Paşinyan və cənab Prezident İlham Əliyev arasında Donald Trampın şahidliyi ilə imzalanan memorandum bölgəmizdə yeni qüvvələr balansını formalaşdırdı.Ümid edirəm ki, bu qüvvələr balansı regionda təhlükəsizlik sisteminin daha da güclənməsinə səbəb olacaq. Bu, bölgədə yeni şərait yaradır və burada Azərbaycanın milli maraqları da təmin olunur. Qarşıdakı dövrdə Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanması region üçün faydalı olacaq, kommunikasiya xətlərinin açılması sülhü möhkəmləndirəcək, təhlükəsizliyə töhfə verəcək və Azərbaycanla ABŞ arasında sülh müqaviləsində göstərilən maddələr üzrə münasibətlər inkişaf edəcək".



**Günel Fərzəliyeva**

# Avropadakı antimilli ünsürlər əmmaməli mollalardan fərqlənmirlər

Vaşinqtonda baş tutan yüksək səviyyəli görüş və imzalanan iki və üçtərəfli sənədlər Azərbaycanın böyük gücə malik dövlət olduğunu bir daha nümayiş etdirdi. Təsdiq olundu ki, Azərbaycan dünyanın ən aparıcı dövlətləri ilə bir sırada dayanan, beynəlxalq aləm tərəfindən hörmət və rəğbət göstərilən dövlətlərdəndir. O da sübuta yetirildi ki, Azərbaycan Prezidenti, Fateh Sərkərdə İlham Əliyev ölkəmizin milli və dövlətçilik maraqlarını hər şeydən üstün tutan, qoruyan və başqa dövlət başçılarına diktə etməyə qadir olan Prezidentdir. Lakin bu gücə və əldə olunan nailiyyətə qarşı bəzi xarici dövlətlərin üzüqara olmuş ünsürləri, rəsmi şəxsləri eləcə də Azərbaycanda müxtəlif cinayətlər törədib Avropada gizlənən antimilli ünsürlərin başlarına daş, canlarına azar salıb. Bütün günü Vaşinqton görüşünün yüksək uğuruna kölgə salmağa xidmət edən fikirlər səsləndirir, statuslar paylaşır, açıqlamalar verirlər. Rusiya və fars-molla rejimi arzu etdikləri müharibənin baş tutmadığını, əksinə, regionda sülhün təmin olunacağını başa düşdüklərindən genişmiqyaslı təxribatlar törədir, açıqlamalar yayır, fikirlər səsləndirirlər. Rusiya ənənəvi terror siyasətinə uyğun olaraq Azərbaycanın Ukraynadakı neft tankerlərinə xain hücumlar təşkil edir, Dövlət Dumasının içki düşkünü olan məxluqları Azərbaycana haqqında sərsəm ifadələr söyləyirlər. Eyni xəstəliyin daşıyıcısı olan fars-molla rejiminin əmmaməli mollaları da səfeh-səfeh ifadələr işlədirlər. Baş mollanın baş müşaviri Əli Əkbər Vilayəti bir qədər də sərsəm leksikonuna geniş yer verərək Tramp yolunun ( Zəngəzur dəhlizi) inşasına imkan verməyəcəklərini bəyan edir. Bundan bir qədər əvvəl isə baş mollanın özü Zəngəzur dəhlizinin onlar üçün qırmızı xətt olduğunu bildirmişdi. Bu baxımdan Əli Əkbər Vilayətinin qaza gətirilməsi baş mollanın tapşırığı ilə olduğu şübhəsizdir. Çünki birincisi, baş molla bir qədər əvvəl Zəngəzur dəhlizi ilə bağlı nalayiq ifadə işlətməklə özünə hörmət edənlərdən olmadığını nümayiş etdirib. İkincisi isə, Ə.Ə.Vilayəti müstəqil mövqe ifadə etmək gücünə və imkanına malik deyil, ona əmr olunub və o da müti qul kimi göstərişi yerinə yetirib.



## Antimilli ünsürlər sifarişlər yerinə yetirirlər

Vaşinqton görüşündən dərhal sonra Azərbaycanı hədəf seçmək üçün əmr qulu olan ünsürlər sırasında sapı özümüzdən olan baltalar da xüsusi fəallıqları ilə seçilirlər. Azərbaycanın dağıdıcı müxalifətinin, o cümlədən Əli Kərimlinin, Cəmil Həsənlinin, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbərin, Arif Hacılının Vaşinqton görüşü ilə bağlı ikibaşlı, siyasi riyakarlıqlarına uyğun fikirlər səsləndirmələri onlarında fars-molla rejiminin əmmaməli mollalarından bir o qədər də fərqlənmədiklərini göstərir. Xarici ölkələrdə oturub, Azərbaycan haqqında sosial şəbəkə vasitələri ilə hər gün canlı yayımlar etməklə hədyanlar səsləndirən Tural Sadıqlı, Arif Məmmədov, Sevinc Osmanqızı, Məhəmməd Mirzəli, Orduxan Temirxan və digərləri daha həyasız və abırsız mövqeyə malikdirlər. Çünki bu ünsürlər sanki əmmaməli mollalardandırlar. Elə Amili, Vilayəti kimi sayıqlayırlar, vildeolar paylaşırlar. Lakin anlamırlar ki, günün birində it kimi sığındıqları ölkələrdən qovulacaqlar. Çünki kifayət qədər xaricdə oturub, Azərbaycan barədə sifarişli təhqirlər yağdıran şəxslər olmuşdur ki, istifadə olunmaq limitləri bitdikdən sonra lazımsız əşya kimi Azərbaycana deportasiya olundular.

## Xaricdəki antimilli ünsürlərdən bir gün imtina olunacaq

Azərbaycan cəmiyyətinə artıq hər şey aydındır ki, Avropada oturub Azərbaycanın dövlətinə, xalqına qarşı şər və böhtanlar səsləndirənlər yalnız xarici xüsusi xidmət orqanları qarşısında deyil, eləcə də erməni lobbisinin pulları qarşılığında üzərilərinə öhdəlik götürüb, öz dövlətlərinə qarşı çirkin kampaniya aparırlar. Onlardan biri olan Orduxan Teymurxandır ki, Azərbaycan torpaqları Ermənistan tərəfindən işğal edilərkən doğulduğu Cəbrayılı müdafiə etməkdənsə Avropaya qaçdı. Sonradan məlum oldu ki, bu məxluq Rusiya agenturasının əməkdaşıdır. Hələ Rusiyada hərbi xidmətdə olarkən Rusiya KQB-si tərəfindən əməkdaşlığa cəlb olunub. Bu gündə Rusiya xüsusi xidmət orqanları tərəfindən Azərbaycana qarşı qarayaxma kampaniyasının aparılmasında istifadə edilir.

Mövcud faktlar və aparılan məhkəmə prosesləri onu deməyə əsas verir ki, bu ünsürlərin sonu çatıb. Daha doğrusu, tədricən onların bir neçəsi məhkəməyə verilib və onlar haqqında qiyabi hökm çıxarılıb. Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə Almaniyada gizlənən Qabil Məmmədov barəsində qiyabi hökm elan edilib. Məhkəmənin hökmü ilə Q.Məmmədovun barəsində 16 il azadlıqdan məhrumetmə ilə bağlı ittihamedici hökm çıxarılıb. Q.Məmmədov 2015-2017-ci illər ərzində ayrı-ayrı şəxsləri dövlət orqanlarında işə düzəltmək, onlara pensiya və sosial müavinət veriləcəyi adı ilə 10 nəfəri aldadıb. Həmin şəxslərdən 29 min 597 manat pul alıb. Həmçinin Qabil Məmmədov sosial media hesablarından açıq terrorçuluğa çağırışlar edib. İş üzrə toplanmış sübutların məcmusuna əsasən, ötən il iyulun 17-də Qabil Məmmədova Cinayət Məcəlləsinin 178.2.2, 178.2.4, 182.2.1, 182.2.4, 214.2.1, 214.2.2, 214.2.3, 214-1, 214-2, 32.3, 34.2, 233, 32.3, 34.2, 315, 32.3, 34.2, 186.2.1, 32.3, 34.2, 186.2.2, 32.3, 34.2 və 127.2.1-ci maddələri ilə yenidən ittiham elan edilməsi haqqında qərar qəbul edilib, lakin o, Azərbaycan Respublikası hüdudlarından kənarda olduğundan ona ittiham elan etmək mümkün olmayıb. Qabil Məmmədova bu ilin yanvarında Binəqədi rayon Məhkəməsinin qərarı ilə qiyabi həbs verilib.

Söz yox ki, yaxın vaxtlarda Qabil Məmmədov, Tural Sadıqlı və digərləri tam heyətlə gizləndikləri ölkələrdə həbs olunaraq Bakıya gətiriləcəklər. Bununla da bir daha Azərbaycan qanunvericiyini pozan istənilən şəxsin cəzadan qaçmasının mümkün olmadığı təsdiq olunacaq.

## Pul bölgüsü üstündə boğuşan məxluqlar

Sosial şəbəkələrdə yayılan informasiyalardan aydın olur ki, Avropadakı söyüş qrup üzvləri ayrılan pulu bölə bilmədiklərindən bir-birini aşağılayıb, təhqir ediblər. Məhəmməd Mirzəli Tural Sadıqlıdan ala bilmədiyi 300 avroya görə onu ən ağır söyüşlərlə təhqir edirdi. Bu azmış kimi Məhəmməd Mirzəli Tural Sadıqlı haqqında təhqir və ifşaedici videolar yayırdı. Bu gün də tərəflər arasında bir-birini təhqiredici kampaniya davam edir. Bu cür yarasız məxluqların bəzən "millət", "xalq" deyə pafoslu açıqlamalarla çıxış etmələri, canlı yayımlar qurmaları gülüş doğurur, məsxərə obyekti yaradır. Ən böyük rüsvayçı hallardan biri ondan ibarətdir ki, iki eşşəyin arpasını bölə bilməyən T.Sadıqlı prezidentliyə namizəd olmaq iddiasına düşmüşdür. Görünür, təlimatları ilə fəaliyyətini qurduğu AXCP sədri Əli Kərimlidən bir səs çıxmadığını gördüyündən qabağa çıxıb, namizəd olmaq arzusuna düşmüşdür. Bununla da həm də daha çox qrant almaq istəyində olmuşdur. Lakin MSK qanunvericiliyin tələbinə əsaslanmaqla ona Azərbaycana gəlib, özü şəxsən namizədliyini irəli sürməyi məsləhət bilmişdir. Təbii ki, qorxaq və cəsarətsiz olan T.Sadıqlı məsləhəti nəzərə almaq gücünə malik deyildi. Onun ki, yalnız xaricdə rahat, təhlükəsiz yerdə oturub, xalqını sevən, millətinə bağlı olan insanları təhqir etməkdir, dövlətə qarşı ittihamlar irəli sürməkdir, xalqın heysiyyatına toxunan ifadələr səsləndirməkdir.

## AXCP sədri öz riyakar rolunu itirir

Sübuta yetirilən fakt ondan ibarətdir ki, xaricdəki antimilli ünsürlərin hərəsini bir qaranlıq dairə idarə edir. Ümumi koordinasiya isə Fransa xüsusi xidmət orqanları tərəfindən həyata keçirilir. Bəzən Avropadakı ünsürləri idarə edən dairələr daxildəki siyasi partiya yetkililərinə də sifarişlərini ötürürlər. AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin, Müsavatın indiki və keçmiş başqanları İsa Qəmbərin, Arif Hacılının və digər dağıdıcı ünsürlər sifarişləri yerinə yetirə bilmədiklərindən Avropadakı mühacirlər tərəfindən sərt şəkildə ittiham olunurlar. Bu da Milli Şura, AXCP və Müsavat arasında bir-birinə qarşı inamsızlığın yaranmasına gətirib çıxarır. Çünki onların hər biri iddia edir ki, antimilli ünsürlər tərəfindən onların təhqir olunması sifarişini rəqibləri verir. Məlum faktdır ki, Əli Kərimli, İsa Qəmbər və Arif Hacılı üzdə bir arxada isə başqa cür bir-birinə qarşı davranırlar. Fürsət yarandıqca bir-birini sıradan çıxartmağa çalışırlar. Son vaxtlar Ə.Kərimli erməni lobbisindən maliyyələşən xarici mediaya ardıcıl müsahibələr verir və bununla özünü müxalifətin lideri olduğunu göstərməyə çalışır. Bu isə İsa Qəmbər və Arif Hacılı cütlüyünü ciddi narahat edir. Baxmayaraq ki, Ə.Kərimli onların özlərinin marağına uyğun olaraq Azərbaycanın milli maraqlarına qarşı şər və böhtanlar səsləndirir. Lakin bu halda belə İsa Qəmbəri və Arif Hacılını Ə.Kərimlinin müxalifətin lideri olaraq önə çıxmasını arzu etmirlər. Əslində, onlar müxtəlif vaxtlarda birləşdiklərini elan etsələr də, gəlinən son nəticədə Əli Kərimli ilə Müsavat funksionerləri bir-birinə qarşı barışmaz mövqedə dayanan düşmənlər olduqlarını göstəriblər. Təbii ki, çox ciddi sosial baza problemi yaşadıqları və silsilə uğursuzluqların rəmzinə çevrildikləri bir vaxtda funksionerlərarası qarşıdurmanın baş verməsi vəziyyətin daha da ağırlaşmasına təkan verir. Nəticədə qarşıdurmalardan bəzən sıravi üzvlər, bəzən isə kollegial orqanlarda təmsil olunan şəxslər partiyalardan istefa verirlər. Hazırkı dönəmdə onların arasında münasibətlərin gərginləşməsi onu deməyə əsas verir ki, tərəflər arasında yeni çəkişmələrin əsası qoyulur. Qalibin kim və ya hansı tərəfin olacağını demək çətindir. Belə demək mümkünsə hansı tərəfə xaricdən daha çox dəstək verilsə, o da siyasətdə lazımsız əşya kimi də olsa fəaliyyətini davam etdirəcək.

***İLHAM ƏLİYEV***

# "Sosial şəbəkələrdə yayılan saxta xəbərlərə qarşı effektiv mübarizə vacibdir"

*MÜNASİBƏT BİLDİRİLDİ*




"Müasir dövrdə sosial şəbəkələr fərdi və ictimai həyatın ayrılmaz hissəsinə çevrilmişdir. İnformasiya mübadiləsi, ünsiyyət, əyləncə və ictimai iştirakçılıq kimi funksiyalarına görə onlar həm gündəlik fəaliyyətlərimizdə, həm də cəmiyyətin informasiya ekosistemində dominant mövqeyə sahibdir". Bu sözləri SİA-ya açıqlamasında media eksperti Yadigar Məmmədli deyib.



Yadigar Məmmədli sözlərinə belə davam edib: "Sosial şəbəkələrin üstünlükləri sırasında informasiyaya sürətli çıxış, qlobal ünsiyyət imkanı və ictimai şüurun formalaşmasında oynadığı rol qeyd edilə bilər. Lakin bu üstünlüklərlə yanaşı, sosial şəbəkələr dezinformasiya, saxta xəbərlər və məqsədli informasiya manipulyasiyası kimi problemlərin əsas mənbələrindən biri halına gəlmişdir. Araşdırmalar göstərir ki, əhali arasında ilk məlumat mənbəyi kimi sosial şəbəkələrə müraciət edənlərin sayı getdikcə artır. Bu isə doğrulanmamış məlumatların sürətlə yayılmasına şərait yaradır. Saxta xəbərlər bəzən təsadüfi yanlışlıq nəticəsində, bəzən isə məqsədli şəkildə ictimai rəyin yönləndirilməsi üçün hazırlanır.

Dezinformasiya ilə mübarizə yolları:

1. Məlumatın yoxlanılması - Sosial şəbəkələrdə yayılan xəbərlərin rəsmi və etibarlı informasiya portalları ilə müqayisə edilməsi.

2. Mənbə qiymətləndirilməsi - Xəbərin yayımlandığı mənbənin etibarlılıq tarixçəsinin nəzərdən keçirilməsi.

3. Media savadlılığının artırılması - Əhalinin dezinformasiyanı tanımaq və ondan qorunmaq bacarıqlarının inkişaf etdirilməsi.

4. Peşəkar medianın rolu - Etibarlı xəbər portalları və jurnalistlər məlumatları dəqiqləşdirmədən paylaşmamalı, mövzunu araşdıraraq müfəssəl şəkildə təqdim etməlidir.

Nəticə etibarilə, sosial şəbəkələr informasiya əldə etmə prosesində mühüm rol oynasa da, onların yaratdığı informasiya təhlükəsizliyi problemləri həm fərdlərin, həm də media qurumlarının məsuliyyətli yanaşmasını tələb edir. Doğrulanmamış məlumatların yayılmasının qarşısının alınması üçün ictimai səviyyədə media savadlılığının yüksəldilməsi və peşəkar informasiya standartlarının qorunması vacibdir".

***Ayşən Vəli***

# Bir zamanlar "Beşdaş", "Evcik-evcik", bəs indi?..

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*




Bu gündən dünənə... Baxır, hey baxıram. O uşaqlıq, bu uşaqlıq... O oyunlar, bu oyunlar... Uşaqların bir-birinə o sevgisi, bu sevgisi... Həyət dolu uşaqlar, həyat dolu uşaqlar. Məhəllələrin səsi-küyü, sevinci, şaqraq gülüşlü uşaqları. Nə oyunlar oynayardıq. "Beşdaş"dan başlardıq. Bunun üçün saatlarla daş axtarıb yığar-yığar, daha sonra içindən hamarların, yumruların, rənglilərin seçərdik ki, gözoxşayan, əlimizə yatan olsun... Günlərlə bu daşların ən qəşəngin axtarardıq. Hələ gözdən oğurlanıb daş yığmağa yollanardıq... Bu daşlarla günləri biz edərdik baş. Nə bir qüssə, nə bir kədər, deyə-gülə o qayğısız uşaqlığı bu daşlarla atar-tutar, barmaqların on çeşidli formasından keçirərək qalib olar, xoş saatlar yaşayardıq... Bu tək bir daş oyunumu? Xeyr. Bu daş oyunu zəkamızı artırardı, göz yaddaşı bəxş edərdi uşaqlara. Əlimizin bir andaca hərəkəti saatlarla bir idmana bərabərdi. Daşlaşardı o mənalı uşaqlığımız bu daşlarda. Gün, ay nədir? - ötən, gedən. Qalan nədir? - tək xatirə...



Tək "Beşdaş"mı? Xeyr. "Evcik-evcik" oyunumuz da var idi. Daşıyardıq ev-eşikdən palaz-paltar, qab-qacaq, gəlinciklər küçəmizə. Bir guşəyə palaz açıb "evimizi" qurardıq biz. Biri ata, biri ana, biri də bala olardı. Çox sevimli ailəmizdə olanları evciklərə daşıyardıq. O illərin "Evcik-evcik" oyunundan yaddaşlara nələr hopub? Unudulmayan ən gözəli quru lavaşı ovub, üstünə də xırdalanmış pendir səpib "ailə" üçün hazırlanan yemək olub. Necə şirin yeyərdilər uşaqlar bu "yeməyi". Uzun illər bu "yeməyi" xəyallardan ala bilmir...

Bir sözümüz birimizə bəd gələndə küsüşərdik, küsülülük yuxumuzu ərşə çəkər, küsülülük bitənədək əzab çəkər, barışmağa can atardıq.

Binaların blokları "konsert zallarımız" idi. Pilləkənlər oturacaq. Qarşıdakı kiçicik bir "meydança" da çalanların, oxuyanların yeri idi. Musiqi məktəbində oxuyan uşaqların biri qarmon, nağarasın, biri tarın, kamançasın gətirərdi. Səsi olan oxuyardı. Yaşıdımız tamaşaçılar pilləkəndə çalanları alqışlardı. Oxuduğumuz yerdəcə mahnıların sözlərini unudardıq, bir andaca deyib-gülüb bir-birimizə qarışardıq. Açılardı birinci mərtəbədən bir qapı: "Ay uşaqlar, sizin əlinizdən biz hara gedək?" Açılardı ikinci mərtəbədən bir qapı: "Ay uşaqlar, bu nə səsdir?"... Qovulmaq qorxusu çökərdi üstümüzə. Böyüklərə nə var ki, alardılar pilləri əlimizdən, sevdiyimiz bu "zalı". Başqa yerdə konsert olar? Tamaşaçı bəs harada əyləşərdi, çalanları, oxuyanları o haradan dinlərdi? Bax bunları düşünərək susardıq biz...



Xatirələrə çevrilən mənzərələr bu günlərdə anılanda düşünürəm: - Böyüklərin hirsinə baxmayın, qoymasaydılar, qoymazdılar bizi o pillələrə. O səs-küyə tab gətirmək asanmıdır? Gözlərinin önündəcə olmaq üçün onlar bizə susurdular. Tək bununçün? Xeyr. Lap sonralar bildim ki, mən onlar bizi qapılardan dinləyirmiş... Sən demə, tamaşaçı tək məhəllə uşaqları deyilmiş. Qapının o tərəfində bizlə yaman qürur duyan neçə-neçə analar da, xalalar da var imiş...

"Yeddi daş", "Ortada qaldı", "Gizlən-qaç", "Bənövşə, bəndə düşə", "Ocaq yandı, su qaynadı", "Əlimi siçan dişlədi", " Xan-vəzir", "Tıx-tıx", "Dama-dama", "Fincan-fincan", "Top divarda"dan danışmıram. İndi məhəllə uşaqları hər üzü şumal olan yeddi daş heç axtarmır. Onları üst-üstə yığıb topun güclü zərbəsilə heç ətrafa dağıtmır. İndi heç "Alma desəm aç, armud desəm, açma!", - deyən də yoxdur. Dəqiqələrlə ortada qalıb topun zərbələrindən qurtulmaq üçün o yanabu yana qaçan da yoxdur. Bənövşə də küskün düşüb, üz çevirib, heç yaxına gəlmir ki, bəndə düşə, ya düşməyə... Ocaq yanmır, su qaynamır.

Məhəllələrdə indi bir zamanlar təbaşirlə çəkdiyimiz dama yoxdur. Yağışın, bir də qarın pozmasından məyuslandığımız damaları gör nə vaxtdır, "sel aparıb". "Top divarda"n enib, "Xan-vəzir" ta unudulub, "Tıx-tıx" yada düşmür, "Fincan-fincan" da oynanmır. İndi artıq o körpəcə əlləri də heç siçanlar dişləmir. Siçanlar yerini "maus"a verib. "Maus"larsa əl dişləmir, ruhu dişləyir. Kompüterlər, smartfonlar, planşetlər, bir də ki playstationlar əvəzləyib o gözəl oyunları. Xoş xatirə qaynağı o ziyansız, zərərsiz oyunları...



Tez-tez keçirəm məhəllələrdən. Yaman sükut çöküb məhəllələrə. Sanki uşaqlar yoxdur, hara isə gediblər. Lal sükut... Bu sükutu yaradan nə? Təbii ki, kompüter, telefonlar, planşetlər... Uşaqların əllərinə öz əlimizlə verdiyimiz xəstəliklər. Səsi çıxmasın, başı qarışsın, çöl-bayır istəməsin deyə, verdiyimiz telefonlar. Saatlarla kompüter qarşısına çökdürdüyümüz uşaqlar. Yorğun gözlər, əldən düşmüş sümüklər... Onurğası durğunluqdan "dil açan", özü isə əsla usanmayan, doymayan uşaqlar...

Məhəllələrdə görürəm hərdən az-maz uşaq. Əllərində planşetlər, smartfonlar... Bir kənarda anaları söhbət edir qonşularla şirin-şirin. Uşaqlarsa saatlarla oyunlarda. Körpələri vəhşiliyə sürükləyən oyunlarda... Telefondan gələn səslərə bax, gör necə də ətraflarda gurlayır: atışmalar, çığırışmalar, vahimələr...



Bir kənardasa yelləncəklər, on cür oyun qurğuları. Baxdıqca uşaq olmaq istəyirəm... Bir zamanlar heç tapmazdıq biz bunları. Ağaclardan kəndir asıb yelləncəklər qurardıq. Yelləndikcə nazikləşən kəndirlərsə qəflətən qırılar, üzüüstə yerə düşüb, yamanca yaralanardıq...

Hayqırmaq istəyirəm: - Ay uşaqlar, yerə qoyun telefonları, gəlin yellənin, atılın-düşün, gününüzü heç olmasa bu oyunlarla keçirin...

Ana susur, ata susur... Nə üçün görən? Özlərinin uşaqlıqda oynadığı oyunları görən niyə öyrətmirlər uşaqlara? Gözlərinin önündəcə övladları yuvarlanır ətalətə, xəstəliyə, süstlüyə... Bilə-bilə, görə-görə görən niyə susur ana? Olanlara, keçənlərə nə üçün göz yumur ata?

Heç gec deyil, ay atalar, ay analar! Uşaqları aparın öz keçmişinizə. Oyunlara qonaq edin, onlara da daddırın o şirinliyi, savab edin. O illərdən uşaqlara bir pay verin... Edin, hökmən edin. Uşaqlara gələcəkdə bir zamanlardan danışmağa söz verin...

...Bir zamanlar " Beşdaş", "Yeddi daş" oynardıq. Başlayardı bu daşlardan oyunlarımız. Heç bitməzdi, tükənməzdi... Daşlaşıbdır uşaqlığımız o daşlarda. O kiçicik daşlardan başlayan oyunlarda... Harda görsən o daşlardan, xatirələr düşür yada: şirin-şəkər xatirələr. Uşaqlıqdan qalan gözəl xatirələr...

İndi deyin, necə uçmasın xəyal o illərə? Noğul kimi oyunlardan bu gün əsər qalmayan o illərə...

***Mətanət Məmmədova***



SƏS
15 avqust
2025-ci il

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Uşaqlarda diqqət pozğunluğunun səbəbləri nədir?



***Uşaqlarda hiperaktivlik və diqqət pozğunluğu valideynlərin və müəllimlərin tez-tez rastlaşdığı bir problemdir. Bu vəziyyət uşağın məktəbdə, evdə və sosial mühitdə davranışlarını və öyrənmə prosesini birbaşa təsir edə bilər. Mütəxəssislər bu pozğunluğun yaranmasını genetik, bioloji, psixoloji və ətraf mühit faktorları ilə əlaqələndirirlər. Həmçinin, bəzi hallarda uşağın doğumdan sonrakı inkişafı və qavrama bacarıqları da diqqət və davranış problemlərinə təsir göstərə bilər.Bəs, uşaqlarda hiperaktivlik və diqqət pozğunluğuna səbəb olan əsas faktorlar hansılardır? SİA mövzu ilə bağlı psixoloq Ezgi Şahin və psixoloq Vüsalə Əmiraslanovanın fikirlərini öyrənib.***

Uşaqlarda hiperaktivlik bəzən genetik olur, bəzən isə sonradan inkişaf edə bilər deyə psixoloq Ezgi Şahin qeyd edir: "Bu uşaqlar sinifdə oturmaqda çətinlik çəkir, diqqətlərini uzun müddət saxlaya bilmirlər və daim hərəkətdə olurlar. Sinif daxilində gəzir, bəzən istəmədən də olsa dostlarını narahat edirlər. Dərslərə diqqətini cəmləyə bilmədikləri üçün bəzən dərsi poza bilirlər. Bu davranışlar onların çox hərəkətli olmalarından qaynaqlanır. Əgər bu uşaqlar ciddi dəstək görməsələr, gələcəkdə istər kursa, istərsə də hazırlıq proqramlarına qatılmalarına baxmayaraq öz potensiallarını tam şəkildə göstərə bilməzlər. Diqqət yayındığı və fokus saxlamaqda çətinlik çəkdiyi üçün hisslərini ya yarımçıq ifadə edirlər, ya da səhv kodlaşdırırlar.

Uşağın bu vəziyyətdə olması onun həm akademik, həm də sosial inkişafına təsir göstərir. Müvafiq dəstək, düzgün yönləndirmə və xüsusi yanaşmalar olmadan onlar öz bacarıqlarını reallaşdıra bilmirlər. Hiperaktiv uşaqlara verilən diqqət və düzgün müdaxilə onların həm dərslərdə, həm də gündəlik həyatda daha balanslı, məmnun və uğurlu olmalarına imkan yaradır".

Psixoloq Vüsalə Əmiraslanova açıqlamasında uşaqlarda diqqət əksikliyi və hiperaktivlik çox vaxt doğumdan sonrakı davranışlardan qaynaqlandığını deyir: "Amma uşaqlar ümumiyyətlə iki qrupa bölünür: tipik və atipik uşaqlar. Atipik uşaqlarda diqqət əksikliyi və hiperaktivlik çox vaxt onların sindromlarına bağlı olur. Məsələn, autizm sindromlu uşaqlar var. Əqli inkişafı geri olan uşaqlar da bəzən hiperaktivlik və diqqət əksikliyi göstərə bilirlər.

Qavrama problemi olan bir çox uşaqlarda diqqət və itiraz əksikliyi daha aydın görünə bilər. Çünki uşaq qavrama səviyyəsinə uyğun olaraq diqqətini yönəldə bilir. Yəni, tam olaraq başa düşmədiyi vəziyyətlərdə o, daha çox diqqət və itiraz əksikliyi nümayiş etdirə bilər. Əvvəla, diqqət əksikliyi və hiperaktivlik psixiatriya baxımından bir problem kimi qiymətləndirilir. Son vaxtlar bu vəziyyət çox vaxt psixiatriya mütəxəssisləri tərəfindən psixiatriya problemi kimi işıqlandırılır. Belə hallarda psixiatr qəbulunun uşaqlar üçün vacib olduğu vurğulanır.

Əgər uşaqda hiperaktivlik və diqqət əksikliyi sindromu varsa, burada psixiatr və psixoloq dəstəyi mütləq tələb olunur. Uşağın fərdi ehtiyaclarına uyğun şəkildə psixoloji və psixiatriya dəstəyi təmin edilməlidir".

***Günel Fərzəliyeva***

# Ronaldo sevgilisinə 6 milyon avroluq nişan üzüyü aldı...




Portuqaliyalı ulduz futbolçu Kriştiano Ronaldonun sevgilisi Corcina Rodrigez nişanlandığını açıqlayıb. Portuqaliyalı ulduzun sevgilisi əlindəki nişan üzüyü ilə çəkilmiş fotosunu paylaşıb. Üzük uzunluğu bir santimetrdən çox olan oval kəsimli brilyantla bəzədilib, hər iki tərəfində isə daha kiçik brilyantlar yerləşir. Üzüyün ölçüsünü 50-52 aralığında qiymətləndirmək olar. Təxminən hərəsi 1 karat olan iki oval yan daşla tamamlanan mərkəzi brilyantın ümumi çəkisi təxminən 37 karat hesab olunur.

Zərgərlik mütəxəssisi İqnasio Torres mediaya bildirib ki, bu üzüyün dəyəri bir neçə meyarla hesablanır, amma daşın kəsimi, onun eksklüzivliyi və onu tamamlayan brilyantları nəzərə alsaq, bu üzüyün qiyməti təxminən 6 milyon avrodur".

# XƏBƏRDARLIQ: Bakıda yağış yağacaq, rayonlarda leysan olacaq



Azərbaycanda avqustun 15-də Bakıda yağış, rayonlarda leysan gözlənilir. Bu barədə SİA-ya Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 22-25, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət isə gecə 70-75 %, gündüz 40-45 % təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24, gündüz 30-34, dağlarda gecə 12-17, gündüz 18-23 dərəcə isti olacaq.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**